

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ QAPISI

**100 ilin qəzeti**

Sayı: 11 (24.393)

*8 mart 2024-cü il, cümə*

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*


## 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və gələcək işlərinizdə yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan xalqı hər zaman qadına dərin ehtiram bəsləmiş, ana haqqını uca tutmuşdur. Ölkəmizdə dövlət qadın siyasətinin başlıca prinsipləri bu çoxəsrlik zəmin üzərində formalaşmışdır.

Zəngin mənəvi-əxlaqi sərvətlərimizin qorunub saxlanılması və günümüzədək layiqincə yaşadılması analarımızın adı ilə sıx bağlıdır. Gözəlliyi, zərifliyi və nəcibliyi ilə seçilən Azərbaycan qadınları, həmçinin hünər və igidlik göstərərək tariximizə parlaq səhifələr yazmışlar. Onlar taleyüklü bütün sınaq anlarında həmişə cəmiyyətimizə əsl mənəvi dayaq olmuş, 44 günlük Vətən müharibəsindəki fədakarlıqları ilə bu gerçəyi bir daha sübuta yetirmişlər.

Xalqımıza xas ənənəvi ailə dəyərlərinə sadiq qalan çağdaş Azərbaycan xanımları, eyni zamanda güclü müasirlik duyğusuna və yenilikçi təbiətə sahibdirlər. Mədəni tərəqqi yolunda əzmlə çalışmış maarifpərvər sələflərinin yaradıcı düşüncəli davamçıları kimi onların hazırkı yüksək ictimai nüfuzu və səhiyyə, təhsil, mədəniyyət, elm sahələrindəki mühüm nailiyyətləri ölkəmizin hərtərəfli inkişafını səciyyələndirən amillərdəndir.

Biz müstəqillik dövrümüzün şərəfli və qürurverici mərhələsindəyik. İnanıram ki, Azərbaycan qadınları gənc nəslin vətənə, milli ideallarımızın təcəssümü olan dövlətçiliyimizə sədaqət ruhunda yetişməsini bundan sonra da xüsusi diqqətdə saxlayacaq, cəmiyyətin yüksəlişinə ahəngdarlıq qazandıran dolğun sosial-mədəni fəaliyyətləri ilə parlaq gələcəyimiz naminə quruculuq işlərində yaxından iştirak edəcəklər.

Hörmətlə,

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 6 mart 2024-cü il*

## Azərbaycan qadınlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Atamoğlanova Natəvan Dəmirçi qızı
Behbudova Gülşən Behbud qızı
Əhmədova Kəhlik Talış qızı
Əliyeva Gültəkin Budaq qızı
Haqverdiyeva Sevda Haqverdi qızı
Həsənova İlhamə Hüseyn qızı
Hüseynova Mariya Pavlovna
Hüseynova Reyhan Kamranovna
Hüseynova Zərifə Başir qızı
Mehrəliyeva Sevil Əli qızı
Məsimova Taliyə Fəxrəddin qızı
Ramazanova Bədyalcamal Süleyman qızı.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 7 mart 2024-cü il*

## Şəfqətli həkim, qayğıkeş ANA

Akademik Zərifə xanım Əliyevanın şərəf və ləyaqətlə yaşanmış ömür yoluna nəzər yetirdikcə gözlərimiz önündə nəcib bir insan, görkəmli alim, xalqını, Vətənini dərin məhəbbətlə sevən, ailəsinə sədaqət rəmzi olan zərif bir qadın obrazı canlanır. Hər zaman yurdsevər soydaşlarımızın, onunla birgə çalışmış elm xadimlərinin, şəfa verdiyi insanların yaddaşlarında yaşayan görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyeva minlərlə insana gözəl dünyamızı görmək sevinci bəxş edirdi.

*(ardı 2-ci səhifədə)*

# Azərbaycana "neft lənəti" arzulayanlara Prezidentdən "yaşıl dərs"




## *Dövlət başçısının "Euronews"a müsahibəsinə sözardı...*

Martın 1-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları zamanı Azərbaycan Prezidenti cənab İlham Əliyevin "Euronews" televiziyasına müsahibəsi bir çox maraqlı tərəfləri ilə yadda qaldı.

Hər şeydən əvvəl, müsahibənin ayaqüstü və cəmi üç sualdan ibarət olması, böyük ehtimalla, televiziyanın tədbir gedişi zamanı qəbul etdiyi qərardan qaynaqlanırdı. Adətən, bu media qurumunun dövlət başçısı ilə müsahibələri hər zaman geniş olduğundan, budəfəki söhbətin yığcamlığı hər halda dövlət başçısının adıçəkilən görüşdə çıxışındakı açıqlamaların Avropa auditoriyası (həm də dünya) üçün maraqlı tərəflərini bir daha konkretləşdirmək məqsədi güdürdü. Bu da təbiidir. Çünki Cənub Qaz Dəhlizinin əhəmiyyəti hazırkı Qərb üçün heç də "yaşıl enerji" konsepsiyasından az əhəmiyyət daşımır. Bu marağı xanım jurnalistin dövlət başçısına ünvanladığı sualların mahiyyətindən də görmək mümkün idi. Verilən suallara Prezidentin mükəmməl cavabları isə Azərbaycanın enerji layihələrinə inamsızlıqla yanaşan bəzi Avropa ölkələrinin özünün fiaskosu idi. Sitat: ***"Bilirsiniz ki, biz bu layihəyə başlayanda bunun necə olacağına dair çoxlu müxtəlif ideyalar var idi. Nikbin düşünənlər də, bədbin düşünənlər də var idi. Həmçinin elələri də var idi ki, düşünürdülər, biz bunu həyata keçirə bilməyəcəyik. Lakin biz əzmli idik və birlidik ki, bunu etmək mümkündür. Ancaq bizim geniş beynəlxalq əməkdaşlığa ehtiyacımız var idi. Ona görə də bizə öz maliyyə imkanları ilə dəstək göstərmələri üçün aparıcı beynəlxalq maliyyə institutlarını dəvət edərək ölkələr arasında, şirkətlər arasında bu əməkdaşlığı qurmağa başladıq. Uzunluğu 3500 kilometr olan kəmər artıq arzu deyil, reallıqdır və o, getdikcə daha çox ölkələri əhatə edir".***

Ümumiyyətlə, indiyədək Azərbaycanın regionda həyata keçirdiyi beynəlxalq layihələrə bir çox Qərb ölkələri inamsızlıq göstərib. Hətta bu inamsızlıqlarını sübuta yetirmək üçün qarayaxdı kampaniyalarından da bolluca yararlanıblar. Amma Azərbaycan Prezidentinin qətiyyəti, siyasi iradəsi və dünyanın iqtisadi gündəliyinin gələcək konturlarını görmək və hədəfə çevirmək bacarığı həmin layihələrin reallığa çevrilməsini təmin edib. Cənub Qaz Dəhlizi də bu sıradan istisna deyil.

Azərbaycanın son illərdə "yaşıl enerji" layihələri ilə bağlı addımları da bəzi ölkə və təşkilatların "ruhuna" uyğun deyil. Belələrinin "məntiqinə" görə, Azərbaycan çoxdan "Holland sindromu"na yoluxmalı, "resurs lənətinə" düçar olmalı, qazıntı yanacağına sahib olmağın bədəlini ödəməli idi. Ölkə başçısı isə bütün bunların fonunda Avropaya mesaj verir ki, əslində, qazıntı yanacağı ilə zəngin ölkələr "yaşıl enerji"yə keçiddə ön sıralarda olmalıdır. Prezident Azərbaycanın timsalında buna aydınlıq gətirir ki, biz bunu ənənəvi ehtiyatlarımız çatışmadığına görə etmirik, ona görə edirik ki, neft-qaz satışından əldə etdiyimiz maliyyədən, gəlirlərdən bərpaolunan enerjiyə sərmayə yatırmaq üçün istifadə etməklə töhfə vermək və buna ehtiyacın olduğuna dair ümumi bir anlayış yaratmaq istəyirik. Buna görə də neft və qaza malik ölkələr günahlandırılmamalıdır. Bu bizim nailiyyətimizdir ki, biz neft və qaz ehtiyatları olan bir çox ölkənin üzləşdiyi "neft lənətinə" düçar olmamağı bacardıq. Biz nefti inkişafa çevirdik, sərvətin ədalətli paylanmasını təmin etməyə nail olduq.

Nəzərə alaq ki, bu gün qazla olduğu qədər, "yaşıl enerji" ilə təminat da Avropa üçün son dərəcə aktualdır. Bu aktuallığı önəmli edən həm də budur ki, hesablamalara görə, Avropa İttifaqının elektrik enerjisinə tələbatının 2040-cı ilə qədər, təxminən, 80 faizə qədər artacağı gözlənilir. Azərbaycanın bərpaolunan enerji layihələri gündəliyi isə ölkə başçısının da dediyi kimi çox iddialıdır. Təkcə Xəzər dənizinin Azərbaycan sektorunda potensialı 157 qiqavatdır. Təxminlərə görə, Azərbaycan yaxın 10 ildə ölkədə bərpaolunan enerjidən maksimum dərəcədə istifadə etməyi qarşıya məqsəd qoyub. Belə bir vəziyyətdə Azərbaycan Avropa üçün potensial tərəfdaşdır, eyni zamanda indiyədək həyata keçirdiyi bir çox layihələrlə artıq özünü etibarlı tərəf kimi də tanıdıb. Yəni söhbət təkcə qaz yox, gələcəkdə elektrik enerjisi üzrə Panavropa təchizatçısına çevrilməkdən də gedir.

Beləliklə, Azərbaycan növbəti dəfə böyük qlobal əhəmiyyəti olan, Avropa İttifaqı ilə yanaşı, 22 ölkənin, 6 beynəlxalq təşkilatın, 44 şirkətin yüksəkvəzifəli təmsilçilərinin iştirak etdiyi tədbirə ev sahibliyi etməklə mövcud potensialını ortaya qoydu. O ki qaldı bəzi qeyri-hökumət təşkilatları və media qurumlarının "qazıntı yanacağı ilə zəngin olan bir ölkə COP-a ev sahibliyi edə bilməz" kimi hücumlarına, Azərbaycanın həmin tədbirdə Avropa İttifaqının külək enerjisi şirkətləri ilə Anlaşma Memorandumu imzalaması və Prezidentin "Euronews" vasitəsilə açıq mesajları Avropa İttifaqının fransız havasında olan üzvlərinə əsl "yaşıl dərs" oldu.

**Səbuhi HƏSƏNOV**


Naxçıvanda 8 Mart – Beynəlxalq Qadınlar Günü qeyd edilib 3
Sən sönməyən Günəşsən, türkün qadını 7
Azərbaycan qadını xalqımızın adını həmişə uca tutub 8
Atabəy yadigarı, qadın ucalığı, şərəf simvolu Möminə xatun 9
Torpaq və qadın, yaxud həyat verən, bəsləyən, böyüdən... 11

# Prezident İlham ƏLİYEV:

*„Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur."*

# Şəfqətli həkim, qayğıkeş ANA




Həyata gəlişi bahara təsadüf edən Zərifə xanım Əliyeva ən böyük ziyalı kimi həmişə adını uca tutduğu Azərbaycan xalqının, bütün elm və tibb ictimaiyyətinin yaddaşına əbədi həkk olunub.

***"... Mənim anam əsl alim idi. O, tibbin bütün incəliklərini öyrənməyə səy göstərirdi. Bununla bərabər, mənimlə, Sevillə məşğul olmağa, bizi Azərbaycanın layiqli vətəndaşları kimi tərbiyə etməyə, böyütməyə vaxt tapırdı. O, həmişə mənim qəlbimdədir".*** Tanrının dünyaya göndərdiyi seçilmiş və xoşbəxt insanlardan biri kimi akademik Zərifə Əziz qızı Əliyeva haqqında oğlu, Prezident cənab İlham Əliyevin kövrək hisslərlə dilə gətirdiyi fikirlərində də bunu görürük. Bu zərif qadın əsl alim ömrü yaşamış, həyatını peşəsinin sirlərini dərindən öyrənməyə həsr etmişdi. Amma onun yaşam fəlsəfəsinin əsasını, heç şübhəsiz, yurduna, torpağına bağlılıq, vətəndaşlıq mövqeyi təşkil edirdi. Bütün mənalı fəaliyyətinin təməlində də bu amillər dayanırdı.

Həyat fəlsəfəsi və mənəvi dünyası kifayət qədər zəngin olan, oftalmologiya elminin inkişafına böyük töhfələr verən, akademik Zərifə xanım Əliyevanın uşaqlıq və gənclik illəri qədim tarixə malik yurd yerlərimizdən biri olan Şahtaxtıda keçmişdi. O, çox sayda ziyalılar yetişdirmiş bu kəndin maarifçi mühitinin işıqlı ənənələrindən yetərincə faydalanmışdı. Görkəmli dövlət xadimi, səhiyyə təşkilatçısı Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım yüksək vətəndaşlıq mövqeyini atasından, əsl Azərbaycan qadınının nəcib xüsusiyyətlərini isə anası Leyla xanımdan əxz etmişdi. Prezident cənab İlham Əliyev də Zərifə xanım haqqında xatirələrində vurğulayır ki, anasının ailəsi ovaxtkı cəmiyyətin ən ziyalı ailələrindən biri olub: ***"Atasının – Əziz Əliyevin həyatı Zərifə xanım üçün doğma xalqının tarixinin ayrılmaz hissəsi idi. ... Ailədə mənim nənəmin, Leyla xanımın təsiri güclü olub. Zərifə xanım ondan çox şey öyrənmişdi. O, hər şeyi bacarırdı: əla aşpaz kimi xörək hazırlayır, elmi işlə məşğul olurdu; qəlblərə təsir edən oxumağı vardı; zərif və sadə olmağı bacarırdı".***

Akademik Zərifə xanım Əliyevanın elmi dünyasına baxsaq təəccüblənməyə bilmərik. Qısa və şərəflə yaşanmış bu ömürdə nələr yoxdur ki... 160-dan çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifi olan alimin gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların yetişdirilməsində də böyük xidmətləri əvəzsizdir. O, onlarla elmlər doktorunun rəhbəri olmuş, böyük bir elmi məktəb yaratmış, oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdü. O həmin mükafata layiq görülən ilk qadın alim idi.

Qürurvericidir ki, dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyeva haqqında yüksək fikirlər söyləmişlər. Moskva oftalmoloji məktəbi Zərifə xanımı *"oftalmologiyanın mirvarisi"* adlandırırdı. Bu ifadədə böyük məna yükü var.

Dünya şöhrətli oftalmoloq, akademik A.Nesterov demişdir: *"Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli idi".* Professor K.Trutneva *"Zərifə xanım hər şeydən əvvəl görkəmli-alim oftalmoloqdur. Təkcə oftalmoloqdurmu?! O, eyni zamanda böyük filosof, gözəl pedaqoq və natiq idi. Onun elmdə məqsədyönlü fəaliyyəti indi də insanı valeh edir. Axı onun elmi fəaliyyətinin əsas istiqamətini görmə orqanının peşə patologiyasını müəyyənləşdirirdi. Bu problemin həllinə çoxları girişə bilmirdi. Çünki elmin bu sahəsi olduqca ağırdır və onun araşdırılması təkcə dərin oftalmoloji savad yox, həm də fundamental təcrübi bilgilər tələb edir. Üstəlik, yüksək təşkilatçılıq bacarığının olması da vacibdir. Məhz bu keyfiyyətlər Zərifə xanım Əliyevaya xas idi".* Sözsüz ki, hər birimizin qəlbində özünə yer qazanmış bu Azərbaycan qadını haqqında deyilən belə yüksək fikirlər Zərifə xanım Əliyevanın xarakter cizgiləridir, onu yüksəkliyə qaldıran, tanıdan amillərdir.

Bu baxımdan Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M. Krasnovun xatirələri Zərifə xanım Əliyevanı tanımayanlar, görməyənlər üçün bir ensiklopediyadır. *"Zərifə xanım elə güclü şəxsiyyət idi ki, mənliyində qalmaq şərti ilə bir kimsənin xətrinə dəyməzdi. Hamı bilirdi ki, Zərifə xanım ona üz tutanların hamısına imkanı daxilində kömək etməyə hazırdır... İnsani keyfiyyətləri, hər şeyi incəliyi ilə qiymətləndirmək bacarığı, adamlarla dil tapmaq qabiliyyəti ictimai işdə də Zərifə xanımın (üstəlik, o, böyük ictimai xadim idi) əlindən tuturdu. Zərifə xanım uzun müddət Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan "Bilik" Cəmiyyətinin üzvü, Oftalmoloqların Elmi Cəmiyyətinin Rəyasət Heyətinin üzvü, "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Əlbəttə, bütün bunlar çoxlu enerji tələb edirdi, lakin Zərifə xanıma "ictimai yük" ifadəsini aid etmək düzgün olmazdı. Bu onun təbiəti üçün adi hal idi.*

*Zərifə Əziz qızının səyləri nəticəsində ilk dəfə görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıldı. O vaxta qədər belə bir laboratoriya mövcud olmamışdı. Necə deyərlər, "yox yerdən" elmi laboratoriya yaradanlar bunun nə qədər qüvvə və bacarıq tələb etdiyini yaxşı bilir.*

*Zərifə xanım "İridodiaqnostika" kimi nəhəng elmi monoqrafiyanı yazmağa və nəşr etməyə girişmişdi. Həmin monoqrafiya elə kitab mağazalarının rəflərində görünən kimi yoxa çıxmışdı. Zərifə xanımın elmi cəsarəti onun elmi təvazökarlığı ilə üst-üstə düşürdü. Hər iki insani keyfiyyət bir-biri ilə çox vaxt ziddiyyətdə olmasına baxmayaraq, onlar Zərifə xanımın timsalında eynilik təşkil edirdi. Elmi nailiyyətlərinə görə o, Tibb Elmləri Akademiyasının mükafatına layiq görüləndə bütün səmimiyyəti ilə təəccübləndi: "Nə üçün məhz mənə?" Zərifə xanım təkcə elm aləmində yox, həyatda da məhz bu cür səmimi idi".*

Ulu Öndər Heydər Əliyev və Zərifə xanım Əliyeva! Bu adlar qoşa çəkiləndə iki şəxsiyyətin bir-birinə olan sevgisindən yaranan məhəbbət dastanı, qarşılıqlı sevgi üzərində qurulan çox gözəl bir ailə nümunəsi göz önünə gəlir. Onları bir-birinə bağlayan əbədi eşq nəsillərə örnək idi. Sadəliyi, nəcibliyi, mehribanlığı ilə yadda qalan Zərifə xanım Ulu Öndərin təkcə həyat yoldaşı deyildi. Bu cəfakeş qadın həm də Ümummilli Liderimizin dostu, sirdaşı, eyni zamanda onunla çiyin-çiyinə dayanaraq öz ömür-gün yoldaşına mənəvi dayaq idi. Fəxri adları, elmi titulları, mükafatları çox olan Zərifə xanıma taleyin verdiyi bir qabiliyyət idi ki, o bunu da bacarırdı. Bacarırdı ki, xalqımız, dövlətimiz üçün iki övlad böyütdü. Öz valideynlərinin yolunu şərəflə davam etdirən, ata-analarına başucalığı gətirən övladlar...

Akademik, Əməkdar elm xadimi, M.İ. Averbax adına mükafatın laureatı... Hər biri qürur, iftixar mənbəyi olan bu adlar sırasında ən şərəflisi Ana adıdır. Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O nə edirdisə, böyük sevgi ilə edirdi. Xalqa xidmət amalını bir ailə ənənəsi kimi yaşadan Prezident cənab İlham Əliyev Zərifə xanımı dərin ehtiramla xatırlayaraq deyir: ***"Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur".***

Bu gün qəlbimizi ağrıdan, göynədən odur ki, ömür-gün yoldaşının min bir əzabla qurub-yaratdığı, bu gün hakimiyyət sükanı arxasında oğlunun böyük siyasi iradə ilə dayandığı və daha parlaq gələcəyə uğurla apardığı müstəqil Azərbaycanımızın bu gününü görə bilmədi Zərifə xanım. Ömrünün 62-ci baharında, 1985-ci il aprelin 15-də dünyasını dəyişdi, əbədiyyətə qovuşdu, Azərbaycan adlı bir məmləkəti hər cür təqiblərdən qoruyan, bu torpağa qol-qanad verən, onu bütün dünyaya tanıdan bir İnsanı tək qoyub getdi. Ulu Öndərimiz həyatı qədər sevdiyi Zərifə xanımı itirdi, onun yoxluğu ilə heç cür barışa bilmədi.

Ümummilli Lider Heydər Əliyev deyirdi: ***"Ömür yoldaşım kimi həyatımda keçdiyim yolda mənə həmişə dayaq, arxa olduğuna görə, ailə həyatımı çox xoşbəxt etdiyinə görə Zərifə xanım mənim üçün çox əzizdir. O, çox istedadlı, çox sadə insan idi. Onun xatirəsi bizim qəlbimizdə, bizim ailənin bütün gələcək davamçılarının qəlbində əbədi yaşayacaqdır".***

Zərifə xanımdan sonra Ulu Öndərimizi Onun qəlbində



Azərbaycana olan sevgisi yaşatdı. Çünki O, Azərbaycan üçün lazım idi. Ulu Öndər də Azərbaycanın inkişafı üçün əlindən gələni əsirgəmədi. Lakin həmişə Zərifə xanımın ruhunu yanında hiss etdi, ondan güc-qüvvə aldı. 2003-cü il dekabrın 12-də Zərifə xanım enişli-yoxuşlu yollarda birgə addımladığı ömür-gün yoldaşına əbədiyyət dünyasında qovuşdu. Bir-birlərinə qovuşduqları üçün sevindilər. Amma arxada gözüyaşlı milyonlarla insan qaldı...

Bu gün Zərifə xanımın ruhu şaddır. Azərbaycan xalqına tarixinin ən şanlı zəfərini bəxş edən İlham Əliyev kimi oğul böyütdüyü üçün! Qalib xalqın Qalib Lideri İlham Əliyevin Şuşada dalğalandırdığı Zəfər bayrağı xalqımızın qəlbini xoşbəxtlik hissi ilə qürurlandırır. Artıq bir neçə ildir ki, torpaqlarımızın 30 illik işğalına son qoyulub, bir zamanlar yalnız top-tüfəng səsləri gələn Qarabağdan indi quruculuğun xoş sədaları yüksəlir. Bu tarixi və şərəfli missiyanı Zərifə xanımın oğlu ata vəsiyyətini yerinə yetirərək həyata keçirir.

Həyatda şərəfli bir ömür yaşayan, Vətənə, torpağa məhəbbəti, sədaqəti, xalqa xidməti ilə yaddaşlarda qalan insanların əməlləri, xeyirxah işləri daim anılır. Tarix məhz belə insanların sayəsində yaranır, onların mənalı ömürləri gələcək nəsillərə örnək, nümunə olur. Bu həyatda yalnız yaxşılığın əbədi olduğunu və bunu həyat amalına çevirən Zərifə xanım Əliyeva kimi. Prezident cənab İlham Əliyev kövrək hisslərlə bu haqda deyir: ***"Bizimlə keçirdiyi son günlərdə Zərifə xanım bilirdi ki, ömrü sona çatır, özü də, bütün həkimlər də tam açıq danışırdılar, üstüörtülü danışıqlardan uzaq idilər. Onun ürəyi elə işıqlı qalırdı. Ölüm fikri onu qorxutmurdu. Onu narahat edən onsuz qalacaq adamlar idi. Gücdən, qüvvədən düşmüşdü. Bütün ömrü boyu olduğu kimi, səssiz bir məğrurluqla əriyirdi. Ölümü də ona həyatı kimi dərin hörmət gətirdi. O, çox gözəl başa düşürdü ki, əbədiyyət qarşısında hər şey kiçikdir, müvəqqətidir, qalan ancaq yaxşılıqdır. Onu sakitləşdirən məhz bu idi".***

Şəfqətli həkim, qayğıkeş ana, mehriban həyat yoldaşı... Bütün bunların daşıyıcısı Zərifə xanım Əliyevadır. Görkəmli dövlət xadimi Əziz Əliyevin qızı, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, Zəfər tarixi yazan, Qalib Lider Prezident cənab İlham Əliyevin anası, Azərbaycan xalqının şöhrətli qızı, gözlərə nur paylayan həkim, şəxsiyyət və sevimli ANA...

**Məhəbbət MİRZƏYEVA**

# Naxçıvanda 8 Mart – Beynəlxalq Qadınlar Günü qeyd edilib



Martın 7-də Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli DramTeatrında “Naxçıvan Muxtar Respublikası 100: Azərbaycanın inkişafında qadınların rolu” mövzusunda tədbir keçirilib.





Əvvəlcə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və digər tədbir iştirakçıları istedadlı qadınların rəsm və əl işlərindən, ailə təsərrüfatı məhsullarından, eləcə də qadınlar tərəfindən nəşr olunan kitablardan ibarət sərgiyə baxıblar.







Sonra Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbirdə çıxış edərək bildirib ki, 8 Mart – Beynəlxalq Qadınlar Günü ümumdünya xalqlarının ümumi nailiyyəti olsa da, hər bir cəmiyyətə bu əlamətdar günü qeyd etmək nəsib olmayıb. Azərbaycan xalqının folklor və milli-mənəvi dəyərlər sistemində formalaşmış qadın obrazı var. Bu nəcib obraz tarixin bütün dövrlərində bütün sahələrdə ön sıralarda olub, cəmiyyətin inkişafında özünəməxsus rol oynayıb. Buna görə də dövlət siyasətimizdə qadın fəaliyyəti və gender bərabərliyinin rolu mühüm yer tutur.

Səlahiyyətli nümayəndə qeyd edib ki, bu gün Azərbaycana gender bərabərliyi dərsi keçməyə çalışan bir çox ölkələrdə qadınların cəmiyyətdə seçmək, seçilmək hüququ İkinci Dünya müharibəsindən sonra verilsə də, Azərbaycanda bu məsələ 1918-ci ildə öz həllini tapmışdı. Həmin dövrdə seçkilərdə bərabər hüquq verilən qadınlarımızın ilk qurultayı keçirilib və bu ənənə bu gün də davam etdirilir. Qadın əməyini müstəqil Azərbaycanın yumşaq gücü adlandıran Fuad Nəcəfli Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə xalqımıza məxsus milli dəyərlərin, adət-ənənələrimizin dünya miqyasında təbliği, qorunması və inkişaf etdirilməsi istiqamətində görülən çoxsaylı tədbirlərdən bəhs edib.

Səlahiyyətli nümayəndə İkinci Qarabağ müharibəsində Vətən övladlarının şücaətinə diqqət çəkərək vurğulayıb ki, parlaq qələbəmizdə, hər şeydən öncə, vətənpərvər övlad böyüdən qəhrəman şəhid anaları misilsiz rol oynayıb. Qeyd edib ki, hazırda Naxçıvanda mühüm islahatlar həyata keçirilir, gələcək inkişafa hesablanmış layihələr icra olunur. Cəmiyyət həyatının bütün sahələrini əhatə edən bu tədbirlərin hər birində qadınlar xüsusi fəallıq göstərir, muxtar respublikanın sosial-iqtisadi və mədəni inkişafına mühüm töhfələr verirlər. Fuad Nəcəfli başda şəhid anaları olmaqla muxtar respublika qadınlarını təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək qeyd edib ki, bu gün dövlət qadın və gender siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda sosial sahələrin inkişafı ilə bağlı bir çox layihələrin icrası ilə yanaşı, muxtar respublikada Regional Ailə mərkəzlərinin yaradılması da nəzərdə tutulub. Bildirilib ki, Azərbaycan qadınları ölkəmizin sosial-iqtisadi, mədəni, ictimai həyatında fəal iştirak edirlər. Bütün dövrlərdə qadınlarımızın əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib.

Ramilə Seyidova göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlığını bildirib.

Naxçıvan Dövlət Universitetinin tələbəsi, Prezident təqaüdçüsü İnci Fərəcova muxtar respublikada gender bərabərliyinin və hərtərəfli təhsil şəraitinin təmin edildiyini vurğulayaraq bildirib ki, xanım tələbələr bütün imkanlardan yararlanır, mübadilə və təcrübə proqramlarında fəal iştirak edirlər. İnci Fərəcova göstərilən etimadı doğruldaraq gələcəkdə ixtisaslı həkim kimi formalaşacağına və dövlətimizə layiqincə xidmət edəcəyinə söz verib.

Çıxışlardan sonra muxtar respublikanın ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup qadına müxtəlif nominasiyalar üzrə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin diplomları təqdim olunub.

Təltif olunanlardan Nurlana Əliyeva və Məhəbbət Mirzəyeva ziyalı qadınlar adından göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Sonra Naxçıvan Televiziyasının hazırladığı “Naxçıvan Muxtar Respublikası 100: Azərbaycanın inkişafında qadınların rolu” filmi nümayiş etdirilib.

Tədbir bədii hissə ilə davam edib.

**“Şərq qapısı”**

## Naxçıvan Muxtar Respublikasının və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin yaranmasının 100 illiyi qeyd edilib










Martın 7-də Naxçıvan Muxtar Respublikasının və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin yaranmasının 100 illiyi münasibətilə tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli əvvəlcə Səhiyyə Nazirliyində yeni yaradılan “DƏSTƏK Mərkəzi” ilə tanış olub.

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini icra edən Samiq Sadıxov məlumat verib ki, mərkəzə daxil olan müraciətlər səhiyyənin səlahiyyətli orqanları tərəfindən vahid mərkəzdən idarə ediləcək. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin, Tibb Müəssisələrinin İdarəetmə Birliyinin və İcbari Tibbi Sığorta Agentliyinin təklif etdiyi xidmətlər əsasında fəaliyyət göstərən “DƏSTƏK Mərkəzi”nin gələcəkdə Şərur və Culfa Regional Tibb mərkəzlərində də təşkil olunması planlaşdırılır.

Sonra Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin “Çağrı Mərkəzi” ilə tanışlıq olub. Bildirilib ki, 2232 qaynar xətti ilə fəaliyyət göstərən mərkəzdə vətəndaş müraciətlərinə operativ və obyektiv şəkildə baxılacaq.

Aparılan səhiyyə islahatları nəticəsində Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə 2 yeni xidməti avtomobil də verilib.

Səlahiyyətli nümayəndə Naxçıvan Muxtar Respublikası Mərkəzi Xəstəxanasının foyesindəki Ulu Öndər Heydər Əliyevin xatirə guşəsinin önünə tər güllər qoyub.

Xidmətin təşkili ilə tanışlıq zamanı məlumat verilib ki, Naxçıvan Muxtar Respublikası Mərkəzi Xəstəxanasında tam avtomatlaşdırılmış rejimdə fəaliyyət göstərəcək beynəlxalq akkreditasiyalı laboratoriya qurulur. Burada klinik laborator diaqnostikasının bütün sahələri üzrə keyfiyyətli və dəqiq xidmət göstəriləcək. Bununla da sakinlər muxtar respublikadan kənara çıxmadan yüksək səviyyəli laborator xidmətlərlə təmin olunacaqlar. 20-yə yaxın yeni iş yeri açılacaq və mütəxəssis həkimlər təcrübəli laborantların yetişdirilməsi üçün təlimlər keçəcəklər. Müxtəlif tibbi profilli təlimlərin keçirilməsi məqsədilə xəstəxanada 60 və 15 nəfərlik olmaqla müasir təchizatlı 11 təlim-treninq otağı yaradılıb. Treninq otaqlarına torpaqlarımızın bütövlüyü uğrunda canından keçən şəhidlərimizin adları verilib.

Sonra Naxçıvan Muxtar Respublikasının və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin yaranmasının 100 illiyi münasibətilə tədbir öz işinə başlayıb.

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyev və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib, şərəfli və məsuliyyətli həkim peşəsindən bəhs edən “Ümid əllərinizdə” videoçarxı nümayiş etdirilib.

ardı 4-cü səhifədə

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək tədbirdə iştirak edən qadınları Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib.

Səlahiyyətli nümayəndə vurğulayıb ki, ötən ilin aprel ayından başlayaraq Naxçıvan səhiyyəsində islahatlara start verilib və bu yeniliklərin bəhrəsini görürük. Bu gün Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində "DƏSTƏK" və Çağrı mərkəzlərinin fəaliyyətə başlaması bu sahədə həyata keçiriləcək tədbirlərin başlanğıcıdır. Hədəflər və görüləcək işlər daha böyükdür. Bu hədəflərin hər biri "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda müəyyənləşdirilib. Proqramda Naxçıvanın mühüm regional səhiyyə mərkəzinə çevrilməsi qarşıya əsas məqsədlərdən biri kimi qoyulub. Bunun üçün növbəti 3 il ərzində Naxçıvan səhiyyəsi tam müasir infrastrukturla təmin ediləcək, xidmətin keyfiyyəti artırılacaq. Qısa müddətdə Naxçıvan Muxtar Respublikasının bütün ərazisini əhatə edən sağlamlıq mərkəzləri yaradılacaq.



Fuad Nəcəfli səhiyyə işçilərinə çətin və məsuliyyətli fəaliyyətlərində uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini icra edən Samiq Sadıxov səhiyyə sisteminin keyfiyyətcə yeni dövrün tələblərinə uyğunlaşdırılması, müasir tibb infrastrukturunun yaradılması istiqamətində görülən işlərdən bəhs edib. Bildirib ki, 2023-cü ildə muxtar respublikada 10-u uzman olmaqla, 60 həkim işlə təmin olunub, tibb işçilərinin əməkhaqları dəfələrlə artıb. Həyata keçirilən ardıcıl və sistemli islahatların nəticəsi olaraq vətəndaş məmnunluğu və etibarına nail olunub. Bunun nəticəsidir ki, ötən il tibb müəssisələrinə 891 min 71 ambulator, 26 min 252 stasionar müraciət daxil olub. "Yüz il yaşa" humanitar aksiya çərçivəsində 7 rayon, 8 qəsəbə və 187 kənd yaşayış məntəqəsində 6 minə yaxın şəxs tibbi prosedurlara cəlb olunub.

Sonra Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin yenilənmiş rəsmi veb-saytı təqdim olunub, Naxçıvan səhiyyəsindən və səhiyyə könüllülərinin fəaliyyətindən bəhs edən videoçarxlar nümayiş etdirilib.

Tədbirdə digər çıxış edənlər Naxçıvanda səhiyyənin keçdiyi inkişaf yolundan bəhs edib, qazanılan nailiyyətlərdən danışıblar.

Sonda Naxçıvan Muxtar Respublikası Mərkəzi Xəstəxanasının Təcili Tibbi Yardım Şöbəsində olan səlahiyyətli nümayəndə Fuad Nəcəfliyə xidmətin təşkilinin yaxşılaşdırılması məqsədilə aparılan yenidənqurma işləri barədə məlumat verilib.

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və işçilərinin say həddinin müəyyən edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturu təsdiq edilsin (əlavə olunur).

3. Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Aparatının işçilərinin say həddi 50 ştat vahidi müəyyən edilsin.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

4.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

4.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

4.3. Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təklifləri əsasında, onun strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ilə razılaşdırmaqla təsdiq etsin;

4.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini**
**Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 6 mart 2024-cü il*

## Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin ləğv edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsi ləğv edilsin.

2. Ləğv edilmiş Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin maliyyə aktivləri Naxçıvan Muxtar Respublikasının büdcəsinə, digər əmlakları (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 26 yanvar tarixli 55/S nömrəli Sərəncamında nəzərdə tutulan daşınmaz əmlak istisna olmaqla) və nəqliyyat vasitələri isə özəlləşdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin sərəncamına verilsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

3.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

3.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi aidiyyəti dövlət orqanları ilə birlikdə Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin ləğv edilməsi ilə əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini**
**Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 4 mart 2024-cü il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 6 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (bundan sonra – Nazirlik) avtomobil nəqliyyatı (Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müəyyən etdiyi hallar istisna olmaqla), rabitə (telekommunikasiya və poçt), elektron hökumət, yüksək texnologiyalar (informasiya kommunikasiya texnologiyaları, rəqəmsallaşma, data idarəçiliyi, mikroelektronika, nano, bio və digər innovativ elmtutumlu texnologiyalar) sahəsində (bundan sonra – müvafiq sahə) dövlət siyasətinin həyata keçirilməsində iştirak edən və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Nazirlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Nazirlik müstəqil balansa, istifadəsində olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və Azərbaycan və ingilis dillərində öz adı həkk olunmuş möhürə, kargüzarlıq xidmətinin gerbsiz möhürünə, müvafiq ştamplara və blanklara malikdir.

1.5. Nazirliyin saxlanması xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Naxçıvan Muxtar Respublikasının büdcəsi və qanunla nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Nazirlik Naxçıvan şəhərində yerləşir.

### 2. Nazirliyin fəaliyyət istiqamətləri

2.0. Nazirlik aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.0.1. müvafiq sahədə vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;

2.0.2. müvafiq sahədə dövlət tənzimləməsini, dövlət nəzarətini və əlaqələndirməni həyata keçirir;

2.0.3. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müəyyən etdiyi hallar istisna olmaqla, müvafiq sahəyə aid məsələlərə dair tarif siyasətini həyata keçirir;

2.0.4. müvafiq sahəyə investisiyaların cəlb edilməsi üçün tədbirlər görür;

2.0.5. müvafiq sahə üzrə yerli əhəmiyyətli investisiya layihələrinin hazırlanmasını, həyata keçirilməsini və idarə olunmasını aidiyyəti dövlət qurumları ilə birlikdə təmin edir;

2.0.6. qanunla müəyyən olunmuş hallarda və qaydada müvafiq sahədə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya və icazə verir, lisenziya və icazə şərtlərinə riayət olunmasına nəzarət edir;

2.0.7. Naxçıvan Muxtar Respublikası ərazisindən keçən avtomobil nəqliyyatı dəhlizlərinin inkişafı və rəqabət qabiliyyətinin artırılması üçün təkliflər verir;

2.0.8. telekommunikasiyanın, o cümlədən simsiz texnologiyaların, genişzolaqlı internetin, poçtun inkişafını və radiotezliklərdən səmərəli istifadəni təmin edir;

2.0.9. tranzit informasiya magistrallarının və qovşaqlarının, regional informasiya xidmətlərinin yaradılmasında və genişləndirilməsində iştirak edir;

2.0.10. aidiyyəti dövlət qurumları ilə birlikdə yüksək texnologiyalar üzrə elmi-texniki və innovasiya siyasətini həyata keçirir;

2.0.11. aidiyyəti dövlət qurumları ilə birlikdə yüksək texnologiyalar sektorunun potensialının gücləndirilməsi, rəqabətədavamlı yüksək texnoloji, elmtutumlu, azməsrəfli məhsul və xidmətlər istehsalının və innovativ sahibkarlığın inkişafının təşviqi üzrə tədbirləri həyata keçirir;

2.0.12. informasiya təhlükəsizliyinin təmin edilməsi, qlobal kiberhücumların qarşısının alınması, elektron informasiya ehtiyatlarının mühafizəsi sahəsində siyasətin hazırlanmasında və həyata keçirilməsində iştirak edir;

2.0.13. dövlət hakimiyyəti orqanlarının xüsusi təyinatlı telekommunikasiya şəbəkələrinin qurulması, istismarı, təhlükəsizliyinin təmin edilməsi üçün aidiyyəti dövlət orqanları ilə birgə tədbirlər həyata keçirir;

2.0.14. muxtar respublikada "elektron hökumət"in inkişafı ilə bağlı tədbirlər görür;

2.0.15. muxtar respublikada data idarəçiliyi fəaliyyətini və istifadəsini təşkil edir;

2.0.16. elektron imza infrastrukturunun inkişafını və ondan geniş istifadəni təmin edir;

2.0.17. informasiya cəmiyyətinin inkişafına dair tədbirlər hazırlayır və həyata keçirir;

2.0.18. müvafiq sahədə dövlət əmlakından səmərəli istifadə olunmasına nəzarət edir və dövlət maraqlarının qorunmasını təmin edir;

2.0.19. müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirir;

2.0.20. müvafiq sahənin inkişafı üçün tədbirlər görür.

### 3. Nazirliyin vəzifələri

3.0. Nazirlik bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.0.1. aidiyyəti dövlət qurumları ilə birlikdə müvafiq sahənin inkişafı üzrə prioritetləri müəyyən etmək, Dövlət proqramlarının və inkişaf konsepsiyalarının hazırlanmasında iştirak etmək və həyata keçirilməsini təmin etmək;

3.0.2. müvafiq sahədə dövlət tənzimləməsi mexanizmlərinin təkmilləşdirilməsinə dair təklifləri aidiyyəti üzrə təqdim etmək;

3.0.3. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək, yüksək texnologiyaların tədqiqi, hazırlanması, işlənməsi və təkmilləşdirilməsi üzrə innovativ fəaliyyəti əlaqələndirmək, müvafiq sahənin inkişafını təşviq etmək və marifləndirmə işini həyata keçirmək, bu sahədə aidiyyəti dövlət qurumları ilə birlikdə zəruri tədbirlər görmək;

3.0.4. fəaliyyət istiqamətləri üzrə müvafiq sahə ilə bağlı dövlət qurumlarının, fərdi sahibkarların və hüquqi şəxslərin fəaliyyətini əlaqələndirmək;

3.0.5. müvafiq sahədə fəaliyyət göstərən və nizamnamə kapitalında dövlətin payı olan müəssisələrdə Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müəyyən etdiyi hallarda və qaydada dövlətin maraqlarını təmsil etmək;

3.0.6. müvafiq sahə üzrə dövlət-özəl tərəfdaşlığını inkişaf etdirmək;

3.0.7. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müəyyən etdiyi hallar istisna olmaqla, müvafiq sahəyə aid olan məsələlərə dair tarif siyasətinin formalaşmasında iştirak etmək, bu sahədə dövlət tərəfindən tənzimlənən tariflər barədə təkliflər vermək, müvafiq sahədə razılaşdırılmış tarif siyasətini həyata keçirmək, daşıma, poçt tarifləri və yığımlarını, eləcə də digər xidmətlər üzrə tarifləri müvafiq qaydalara uyğun olaraq təsdiq edilməsi üçün təkliflər vermək, habelə müvafiq sahədə tarifləri dövlət

*ardı 5-ci səhifədə*

tərəfindən tənzimlənməyən xidmətlər üzrə tətbiq edilən tariflərin monitorinqini aparmaq, bu barədə aidiyyəti qurumlara tövsiyələr vermək;

3.0.8. müvafiq sahədə dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.0.9. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müəyyən etdiyi hallarda və qaydada müvafiq sahədə dövlət sifarişçisi funksiyasını həyata keçirmək;

3.0.10. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq, müvafiq sahədə dövlət vəsaiti hesabına maliyyələşdirilən tikintilər üzrə sifarişçi funksiyalarını həyata keçirmək;

3.0.11. müvafiq sahədə dövlət əhəmiyyətli obyektlərin tikintisi barədə təkliflər vermək;

3.0.12. tabeliyində olan dövlət müəssisələrinin özəlləşdirilməsinə dair komissiyaların işində iştirak etmək;

3.0.13. Azərbaycan Respublikasının Prezidenti və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla, nəqliyyat qovşaqlarında nəqliyyat növlərinin qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsi və qarışıq daşımaların inkişafı üçün tədbirlər görmək;

3.0.14. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa 3 nömrəli əlavə – "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"nın 31-ci, 35-ci, 36-cı, 39-cu, 41-ci, Azərbaycan Respublikasının Prezidenti və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla, 34-cü və 37-ci maddələrində nəzərdə tutulmuş icazələri bilavasitə və ya strukturuna daxil olan qurum vasitəsilə vermək, icazə şərtlərinə əməl edilməsinə nəzarət etmək;

3.0.15. taksi minik avtomobillərinin sürücüləri üçün xüsusi hazırlığın keçirilməsi qaydası, proqramı və müddəti ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təkliflər vermək;

3.0.16. avtonəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyaları (sahələri) üçün metodiki göstərişləri təsdiq etmək;

3.0.17. yüksək texnologiyalar parklarının fəaliyyətinin təşkilini və idarə olunmasını həyata keçirmək;

3.0.18. informasiya təhlükəsizliyinin təmin edilməsi və məlumatların qorunması sahəsində aidiyyəti dövlət qurumları ilə birlikdə tədbirlər görmək;

3.0.19. biometrik texnologiyaların yaradılmasına və həmin texnologiyalara xidmət göstərilməsinə lisenziya vermək, lisenziya tələblərinə və şərtlərinə riayət olunmasına nəzarət etmək;

3.0.20. qanunla müəyyən edilmiş hallarda və qaydada lisenziya müqaviləsi bağlamaq;

3.0.21. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 4 aprel tarixli 156-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası ərazisində lisenziya verən orqanların siyahısı"nın 1.3-cü və 2.1-ci bəndlərində nəzərdə tutulmuş lisenziyaya malik olan lisenziya sahibinin lisenziyada göstərilən fəaliyyəti həyata keçirərkən lisenziya şərtlərinə riayət etməsinə nəzarət etmək, lisenziya sahibinin lisenziya şərtlərinə riayət etməməsi hallarını aşkar etdikdə lisenziyanın dayandırılması və ləğvi üçün lisenziya verən orqana əsaslandırılmış təqdimat göndərmək;

3.0.22. aidiyyəti dövlət orqanları ilə birlikdə müvafiq sahə üzrə xidmət bazarlarının formalaşdırılmasına nəzarəti təmin etmək, xidmət bazarlarının təhlilini aparmaq, hökmran mövqe tutan operatorların və provayderlərin fəaliyyəti üzrə xüsusi tələbləri müəyyənləşdirmək;

3.0.23. aidiyyəti dövlət orqanları ilə birlikdə informasiya kommunikasiya texnologiyaları sahəsi üzrə xidmətlərin, o cümlədən internet xidmətlərinin keyfiyyət göstəricilərini müəyyən etmək, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, bu sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinin xidmətlərinin keyfiyyətinə nəzarət etmək və monitorinqlər aparmaq;

3.0.24. ümumistifadəli telekommunikasiya şəbəkəsinə qoşulma və ondan istifadə qaydalarını, bu şəbəkənin inkişafı, təkmilləşdirilməsi, səmərəli və etibarlı istifadə edilməsi sahəsində siyasətin həyata keçirilməsində iştirak etmək;

3.0.25. Naxçıvan Muxtar Respublikasının radiotezlik ehtiyatlarından istifadənin tənzimlənməsində və mühafizəsinin həyata keçirilməsində iştirak etmək;

3.0.26. radiotezliklərdən, radioelektron vasitələrdən və bu sahədə mülki təyinatlı qurğulardan istifadə qaydalarını müəyyənləşdirmək, onların icrasına nəzarəti və telekommunikasiya vasitələrinin elektromaqnit sahəsinin monitorinqini həyata keçirmək;

3.0.27. universal telekommunikasiya xidmətlərinin təşkilini, keyfiyyətini, müddətini və digər tələbləri müəyyən etmək, xidmətlərə nəzarətlə bağlı zəruri tədbirlər görmək;

3.0.28. Müvafiq sahə üzrə fəaliyyət göstərən operatorların, provayderlərin və digər hüquqi şəxslərin, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin qarşılıqlı fəaliyyətini əlaqələndirmək məqsədilə tövsiyələr vermək;

3.0.29. telekommunikasiya vasitələrinin və qurğularının sertifikatlaşdırılmasını təşkil etmək;

3.0.30. poçt-maliyyə xidmətləri sahəsində fəaliyyətə nəzarətin həyata keçirilməsi üçün zəruri tədbirlər görmək;

3.0.31. muxtar respublikada dövlət poçt ödənişi nişanlarının hazırlanması, nominal dəyərinin və tirajının təsdiq edilməsi, onların çapı, dövriyyəyə buraxılması və dövriyyədən çıxarılması qaydasını müəyyən etmək və bu sahəyə nəzarəti həyata keçirmək;

3.0.32. Naxçıvan Muxtar Respublikasının ərazisində poçt rabitəsi obyektləri üçün poçt indekslərini və nəzarət-keçid müddətlərinə dair normativləri müəyyən etmək və poçt rabitəsi xidmətlərinin keyfiyyətinə nəzarət etmək;

3.0.33. fövqəladə hallarda telekommunikasiya şəbəkələrinin dayanıqlı işini təmin etmək, bu məqsədlə material ehtiyatlarının yığılması planlarını hazırlamaq və həyata keçirilməsində iştirak etmək;

3.0.34. muxtar respublikanın bütün yaşayış məntəqələrində əhalinin keyfiyyətli və etibarlı telekommunikasiya və genişzolaqlı internet xidmətləri ilə təmin olunması ilə bağlı zəruri tədbirlər hazırlamaq və həyata keçirmək;

3.0.35. poçt rabitəsi və poçt-maliyyə xidmətlərinin inkişafı üzrə zəruri tədbirlər görmək;

3.0.36. aidiyyəti dövlət orqanları ilə birlikdə muxtar respublikanın tranzit informasiya dəhlizi imkanlarının genişləndirilməsi, bu sahədə yerli və xarici operatorların fəaliyyətinin əlaqələndirilməsi, investisiyaların cəlb olunması üzrə zəruri tədbirlər hazırlamaq və həyata keçirmək;

3.0.37. muxtar respublikanın qlobal informasiya-telekommunikasiya şəbəkəsinə alternativ və dayanıqlı qoşulma imkanlarının artırılması üzrə zəruri tədbirlər görmək;

3.0.38. muxtar respublikada data-mərkəzlər şəbəkəsinin genişləndirilməsini və informasiya xidmətlərinin təşkilini həyata keçirmək;

3.0.39. aidiyyəti qurumlarla birlikdə yüksək texnologiyalar üzrə elmi tədqiqatların genişləndirilməsi, səmərəliliyinin artırılması və nəticələrinin müvafiq sahələrdə tətbiqi ilə bağlı zəruri tədbirlər hazırlamaq və həyata keçirmək;

3.0.40. aidiyyəti dövlət qurumları ilə birlikdə istehsal sahələrində yüksək texnologiyaların tətbiqinin genişləndirilməsi, yüksək texnoloji və elmtutumlu məhsul və xidmətlərin yaradılması və istehsalı ilə bağlı təkliflər hazırlamaq və həyata keçirilməsi üçün tədbirlər görmək;

3.0.41. innovasiya fəaliyyətinin təşviqini, yerli sahibkarlıq subyektlərinə müasir texnologiyaların və texnoloji həllərin əldə olunmasına yardım göstərilməsini və onların transferinin təşkilini, innovasiyayönümlü elmi tədqiqatların dəstəklənməsini, innovativ layihələrin (o cümlədən startapların) maliyyələşdirilməsini, innovasiya təşəbbüskarlığının təbliğini həyata keçirmək;

3.0.42. muxtar respublikada ümumi kibertəhlükəsizlik vəziyyətini mütəmadi təhlil etmək, kibertəhlükəsizlik sahəsində informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyasını həyata keçirmək, əhalini, özəl və digər qurumları elektron vasitələrdən istifadə zamanı mövcud və yarana biləcək elektron təhlükələr barədə məlumatlandırmaq, onlara texniki və metodik yardım göstərmək, muxtar respublikaya daxil olan ümumi internet trafikində qlobal kiberhücumların qarşısını almaq məqsədilə internet operatorları və aidiyyəti dövlət orqanları ilə birlikdə qabaqlayıcı tədbirlər görmək;

3.0.43. muxtar respublikanın efir məkanına kənar müdaxilənin qarşısının alınması üçün aidiyyəti dövlət orqanları ilə birlikdə zəruri tədbirlər hazırlamaq və həyata keçirmək;

3.0.44. dövlət reyestrinə daxil edilmiş informasiya sistemlərində fərdi məlumatların toplanması, işlənməsi və mühafizəsinin "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə, habelə məlumatların və onların işlənmə üsullarının informasiya sisteminin bəyan olunmuş məqsədlərinə uyğunluğunu aidiyyəti dövlət orqanları ilə birlikdə yoxlamaq;

3.0.45. elektron təhlükələrin aşkar olunması və qarşısının alınması məqsədilə aidiyyəti dövlət qurumları ilə birlikdə informasiya sistemlərinin və şəbəkələrinin təhlükəsizlik üzrə auditini həyata keçirmək;

3.0.46. telekommunikasiya və yüksək texnologiyalar sahəsində obyektlərin mühafizəsini təşkil etmək və fövqəladə vəziyyətlərin aradan qaldırılmasında iştirak etmək;

3.0.47. dövlət hakimiyyəti orqanlarının xüsusi təyinatlı telekommunikasiya şəbəkələrinin qurulması, belə şəbəkələrə texniki dəstək və onların təhlükəsizliyinin təmin edilməsi ilə bağlı aidiyyəti dövlət orqanları ilə birgə tədbirlər görmək;

3.0.48. elektron imza infrastrukturunun inkişafını təmin etmək;

3.0.49. dövlət informasiya ehtiyatları və sistemlərinin Nazirliyin Data Mərkəzində saxlanılmasını, həmçinin "Hökumət buludu"ndan istifadəni təşkil etmək;

3.0.50. Nazirliyin Data Mərkəzində, eləcə də "bulud" texnologiyasına əsaslanan "bulud" xidmət modellərində dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması və aparılmasını, habelə elektron xidmətlərin təşkili üçün texnoloji mühiti təmin etmək;

3.0.51. "Hökumət buludu"nun təhlükəsizliyinin təmin edilməsi üçün aidiyyəti dövlət orqanı ilə birlikdə tədbirlər görmək;

3.0.52. dövlət informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılması, inteqrasiyası və arxivləşdirilməsi ilə bağlı texniki tələbləri müəyyənləşdirmək;

3.0.53. dövlət qurumlarının göstərdikləri xidmətlərin elektron formada təşkili və təkmilləşdirilməsi məqsədilə aşağıdakıları həyata keçirmək:

1. dövlət qurumlarının malik olduqları informasiya sistemləri və ehtiyatları ilə tanış olmaq, göstərilən xidmətlərin elektron formada təşkili ilə bağlı tədbirlər görmək;

2. elektron xidmətlərin göstərilməsi üzrə texniki tələbləri müəyyənləşdirmək;

3. dövlət qurumlarında elektron xidmətlərin təşkili və göstərilməsi, habelə dövlət qurumlarının informasiya sistemlərinin və ehtiyatlarının təşkili və fəaliyyəti üzrə qiymətləndirmələr aparmaq və nəticəsi barədə arayışlar, hesabatlar hazırlamaq;

4. elektron xidmətlərin göstərilməsi üzrə dövlət qurumlarına metodik və texniki köməklik göstərmək;

5. dövlət qurumlarının elektron xidmətləri barədə vətəndaşlardan daxil olan müraciət və təklifləri təhlil edərək aidiyyəti dövlət qurumlarına məlumat göndərmək;

3.0.54. informasiya sistemləri və ehtiyatları, habelə elektron xidmətlərlə bağlı dövlət qurumları tərəfindən təqdim olunan layihələrə, onların texniki və səmərəliliyi baxımından məqsədəuyğunluğu barədə rəy vermək;

3.0.55. dövlət xidmətlərinin həyata keçirilməsinin keyfiyyət standartlarına dair təkliflər vermək;

3.0.56. internet və telekommunikasiya xidməti göstərən operatorların və provayderlərin uçotunu aparmaq;

3.0.57. yayılması qadağan edilən informasiyanın internet informasiya ehtiyatlarında yerləşdirilməsi halları ilə bağlı qanunla müəyyən edilmiş tədbirləri görmək;

3.0.58. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci və 14.2-ci maddələrinə uyğun olaraq internet informasiya ehtiyatları vasitəsilə yayımlanan kino, televiziya və videofilmlərin (o cümlədən animasiya filmlərinin), kompüter və digər elektron oyunların işarələnmədiyi və yaxud bu Qanunun tələblərini pozmaqla işarələndiyi barədə məlumat əldə etdikdə, müstəqil şəkildə həmin informasiya məhsullarının ekspertizasını təşkil etmək;

3.0.59. qanunla müəyyən edilmiş hallarda və qaydada internet informasiya ehtiyatına müraciəti məhdudlaşdırmaq;

3.0.60. "elektron hökumət"in inkişafı, elektron xidmətlərin təkmilləşdirilməsi məqsədləri üçün informasiya sistemləri, ehtiyatlar və reyestrlərin əlaqələndirilməsi və inteqrasiyası ilə bağlı təkliflər vermək;

3.0.61. dövlət xidmətlərinin elektronlaşdırılması və "elektron hökumət" portalına inteqrasiyası ilə bağlı təkliflər vermək;

3.0.62. müvafiq sahədə elektron idarəetmə sistemlərini və informasiya sistemlərini yaratmaq;

3.0.63. Naxçıvan Muxtar Respublikasında lotereya təşkilatçısının və (və ya) idman mərc oyunlarının operatorunun məlumatı əsasında, idman mərc oyunlarının operatoru ilə müqavilə bağlamadan fəaliyyət göstərən idman mərc oyunlarının həm yerli, həm də xarici virtual satıcılarının internet portallarının və saytlarının ölkə ərazisində fəaliyyətinin qarşısının alınması üçün zəruri tədbirlər görülməsində iştirak etmək;

3.0.64. "Elektron ticarət haqqında" Azərbaycan Respublikası Qanununun 5.3-cü maddəsində nəzərdə tutulan məlumatlarla alıcıların (sifarişçilərin) və səlahiyyətli dövlət orqanlarının tanış olmasına imkan yaratmadıqda, müvafiq satıcının muxtar respublika ərazisində fəaliyyətinin məhdudlaşdırılmasında iştirak etmək;

3.0.65. əhalinin müxtəlif qrupları, şəhər və kənd yaşayış məntəqələri arasında informasiya texnologiyalarından istifadədə rəqəmli fərqliliyin aradan qaldırılması üçün zəruri tədbirlər hazırlamaq və həyata keçirmək;

3.0.66. biliklərə əsaslanan iqtisadiyyatın, o cümlədən sosial-iqtisadi fəaliyyətin yeni formalarının (e-ticarət, telesəhiyyə, teleiş və sair) inkişafı ilə bağlı aidiyyəti qurumlarla birlikdə zəruri tədbirlər hazırlamaq və həyata keçirmək;

3.0.67. yerli internet resurslarının inkişaf etdirilməsi üzrə aidiyyəti qurumlarla birlikdə zəruri tədbirlər hazırlamaq və həyata keçirmək;

3.0.68. müvafiq sahə üzrə mövcud qayda və standartlara uyğun olmadan təşkil edilən xidmətlərin aşkarlanması və qarşısının alınması ilə bağlı aidiyyəti qurumlarla birlikdə tədbirlər görmək;

3.0.69. müvafiq sahə üzrə təsərrüfat subyektlərinin inhisarçılıq fəaliyyətinin və haqsız rəqabətinin qarşısının alınması, sağlam rəqabət mühitinin formalaşdırılması və istehlakçıların hüquqlarının qorunması sahəsində aidiyyəti dövlət orqanları ilə birgə tədbirlər görmək;

3.0.70. aidiyyəti dövlət orqanları ilə birlikdə müvafiq sahədə investisiya mühitinin yaxşılaşdırılması, investisiyaların stimullaşdırılması ilə bağlı təkliflər hazırlamaq və yerli və xarici investisiyaların cəlb edilməsi üçün tədbirlər görmək;

3.0.71. müvafiq sahədə yüksəkixtisaslı kadrlara olan tələbatı öyrənmək, kadr hazırlığını təmin etmək, mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.0.72. müvafiq sahədə dövlət standartlarının və təsnifatlarının hazırlanmasında iştirak etmək;

3.0.73. müvafiq sahə üzrə beynəlxalq təşkilatların tövsiyələrinin öz fəaliyyətində nəzərə alınması üçün tədbirlər görmək;

3.0.74. müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;

3.0.75. müvafiq sahədə elektron xidmətlərin təşkilini və göstərilməsini təmin etmək;

3.0.76. insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.0.77. müvafiq sahəyə ayrılan büdcə vəsaiti, kreditlər, qrantlar və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.0.78. Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işini əlaqələndirmək, onların fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.0.79. Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların fəaliyyətini və maliyyə vəziyyətini təhlil etmək, onların fəaliyyətinin səmərəliliyinin artırılması barədə təkliflər vermək və tədbirlər görmək, sosial-iqtisadi inkişaf proqnozlarını, o cümlədən gəlirlər və xərclər smetasını hazırlamaq və onların icrasına nəzarət etmək;

3.0.80. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.0.81. öz fəaliyyətində ictimaiyyətin iştirakını, özəl sektor və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığı təmin etmək;

3.0.82. fəaliyyət sahəsində əməyin mühafizəsi və əmək şəraitinin yaxşılaşdırılması ilə bağlı zəruri tədbirləri hazırlamaq və həyata keçirmək;

ardı 6-cı səhifədə

3.0.83. müvafiq sahə üzrə işçilərin sosial vəziyyətinin və mədəni-məişət şəraitinin yaxşılaşdırılmasını təmin etmək;

3.0.84. Nazirliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər həyata keçirmək;

3.0.85. Nazirliyin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq, onlara vaxtında cavab vermək və digər tədbirlər görmək;

3.0.86. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Nazirliyin hüquqları**

4.0. Nazirlik öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.0.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.0.2. müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.0.3. müvafiq sahə üzrə rəy vermək, təhlillər, ümumiləşdirmələr, monitorinqlər və tədqiqatlar aparmaq, metodik və analitik materiallar, habelə tövsiyələr hazırlamaq, təkliflər vermək, çatışmazlıqların həlli yollarını prioritetləşdirmək;

4.0.4. müstəqil ekspert və mütəxəssisləri, məsləhətçi təşkilatları, elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsaitlər çərçivəsində öz fəaliyyətinə cəlb etmək, ictimai əsaslarla işçi qruplar və komissiyalar yaratmaq;

4.0.5. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin muxtar respublikada keçirilməsini təşkil etmək;

4.0.6. xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək, xarici dövlətlərin aidiyyəti orqanları və digər qurumları ilə, beynəlxalq təşkilatlarla, xarici hüquqi və fiziki şəxslərlə danışıqların aparılmasında iştirak etmək;

4.0.7. beynəlxalq və yerli daşımaların səmərəliliyini təmin etmək məqsədilə avtovağzalların (avtostansiyaların) yaradılması, genişləndirilməsi, bağlanması və digər formada təkmilləşdirilməsi barədə təkliflərini qanunla müəyyən olunmuş qaydada təqdim etmək;

4.0.8. avtomobil nəqliyyatı sahəsində səmərəli idarəetməni təmin etmək məqsədilə müvafiq informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsini, dövlət və özəl təşkilatların fəaliyyət sahələrinə uyğun informasiya sistemlərinin yaradılmasını, fəaliyyətinin tənzimlənməsini, qiymətləndirilməsini və inteqrasiyasını həyata keçirmək;

4.0.9. avtomobil nəqliyyatı qovşaqlarında yük sahibləri, operatorlar, ekspeditorlar, agentlik və digər təşkilatlarla qarşılıqlı münasibətlərin təkmilləşdirilməsinə dair təkliflər vermək;

4.0.10. avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən dövlət qurumlarından onların fəaliyyəti barədə müəyyən olunmuş qaydada məlumatlar tələb etmək və səlahiyyətləri daxilində müvafiq tədbirlər görmək;

4.0.11. beynəlxalq təcrübə nəzərə alınmaqla, muxtar respublika üzrə göstərilən avtomobil nəqliyyatı xidmətlərinin keyfiyyətinin qiymətləndirilməsi və yüksəldilməsi ilə bağlı tədbirlər görmək;

4.0.12. yüksək texnologiyalar üzrə innovativ təşəbbüslərə ("start up"lara) dəstək vermək, müsabiqələr, təbliğat tədbirləri, seminar və təlimlər keçirmək;

4.0.13. fərdi məlumatların toplanması, işlənməsi və mühafizəsi ilə məşğul olan dövlət orqanlarından, hüquqi və fiziki şəxslərdən "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması hallarının aradan qaldırılmasını tələb etmək, qanunun tələblərini pozmuş şəxslərin məsuliyyətə cəlb edilməsi üçün aidiyyəti dövlət orqanları ilə birlikdə tədbirlər görmək;

4.0.14. telekommunikasiya, poçt və yüksək texnologiya sahələrində, habelə tabeliyində olan nəqliyyat qurumlarında çalışan işçiləri dövlət mükafatlarına və digər təltiflərə təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

4.0.15. dövlət qurumlarının malik olduqları informasiya sistemlərinə və ehtiyatlarına çıxış əldə etmək, dövlət qurumları tərəfindən göstərilən xidmətlərin elektron formada təşkili ilə bağlı müvafiq proqram təminatını hazırlamaq məqsədilə həmin qurumların xidmət prosesini öyrənmək və müvafiq təkliflər vermək;

4.0.16. elektron xidmətlərin və rəqəmsallaşmanın təşkili və təkmilləşdirilməsi ilə bağlı layihələrin təşəbbüsçüsü, icraçısı və ya sifarişçisi kimi çıxış etmək;

4.0.17. dövlət qurumlarında elektron xidmətlərin və rəqəmsallaşmanın təşkilində istifadə olunacaq texnologiyalar və informasiya sistemlərinin və ehtiyatlarının yaradılması zamanı onların təsdiq olunmuş layihələrə, texniki normalara, standartlara və tələblərə uyğun həyata keçirilməsinə nəzarət etmək və istismara qəbulunda bilavasitə iştirak etmək;

4.0.18. dövlət qurumlarının rəqəmsallaşma və informasiya sistemləri arasında informasiya mübadiləsinin həyata keçirilməsi məqsədilə yaradılmış infrastruktura qoşulmaları üçün dövlət qurumlarına təkliflər vermək və onların təmin edilməsinə nəzarət etmək;

4.0.19. rəqəmsallaşma, elektron xidmətlərin təşkili və təkmilləşdirilməsi ilə bağlı dövlət qurumlarının təkliflərini toplamaq, onları təhlil etmək və rəy vermək;

4.0.20. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Nazirliyin fəaliyyətinin təşkili**

5.1. Nazirliyin Aparatı, onun strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və sair) Nazirliyin vahid sistemini təşkil edir. Nazirlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. Nazirliyin strukturunu, onun Aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say həddini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri müəyyən edir. Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.3. Nazirliyin fəaliyyətinə Azərbaycan Respublikasının Konstitusiyasının 139-cu maddəsinin I hissəsinin 5-ci bəndinə, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndinə və 5-ci maddəsinin II hissəsinin 7-ci bəndinə əsasən vəzifəyə təyin və vəzifədən azad olunan nazir rəhbərlik edir. Nazirliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün nazir şəxsən məsuliyyət daşıyır.

5.4. Nazirin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır. Nazir müavinləri nazirin onlara həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.5. Nazir:

5.5.1. Nazirliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Nazirliyin digər vəzifəli şəxslərinin ştat, kadr, maliyyə, təsərrüfat və digər məsələlər üzrə səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.3. Nazirliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların (əsasnamələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və elmi-texniki şurasının əsasnamələrinin təsdiqi barədə, həmçinin bu Əsasnamənin 5.11-ci bəndində Nazirliyin kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə qərar formasında normativ hüquqi aktlar qəbul edir;

5.5.4. Nazirliyin strukturuna daxil olan qurumların struktur bölmələrinin əsasnamələrini təsdiq edir, strukturuna daxil olmayan tabeliyindəki qurumların nizamnamələrini təsdiq edilməsi üçün təqdim edir;

5.5.5. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Nazirliyin Aparatının, strukturuna daxil olan qurumların, habelə strukturuna daxil olmayan tabeliyindəki qurumların strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;

5.5.6. Nazirliyin Aparatının işçilərini, onun strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların (rəhbərləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən qurumlar istisna olmaqla) rəhbərlərini, rəhbərlərinin müavinlərini və digər rəhbər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.5.7. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Nazirlik tərəfindən qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.5.8. Nazirliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.9. dövlət orqanları, idarə, müəssisə və təşkilatlar, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Nazirliyi təmsil edir, danışıqlar aparır, verilmiş səlahiyyətlər daxilində müvafiq sənədləri imzalayır;

5.5.10. Nazirliyə aid edilmiş məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar vəsaitlərin formalaşdırılması ilə bağlı təkliflər verir;

5.5.11. muxtar respublika büdcəsindən ayrılmış vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir;

5.5.12. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin sərəncamçısı olaraq, maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Nazirliyin struktur bölmələrinin, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki olan qurumların işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.13. Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurasının sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir;

5.5.14. Nazirliyin dövlət qulluqçusu olan işçilərinə ixtisas dərəcələri verir.

5.6. Nazirliyin strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.

5.7. Nazir öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə tapşıra bilər.

5.8. Nazirlikdə nazirdən (kollegiyanın sədrindən), nazirin müavinlərindən və Nazirliyin digər rəhbər işçilərindən ibarət kollegiya yaradılır. Nazirliyin kollegiyasının tərkibinə mütəxəssislər və alimlər də daxil edilə bilərlər.

5.9. Nazirliyin kollegiyası üzvlərinin sayını və kollegiyanın tərkibini nazirin təqdimatı ilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.10. Nazirliyin kollegiyası öz iclaslarında Nazirliyin fəaliyyəti ilə bağlı məsələlərə baxır və müvafiq qərarlar qəbul edir.

5.11. Nazirliyin kollegiyası qərar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

5.11.1. Nazirliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktları;

5.11.2. qəbul edilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən Nazirliyə tapşırılmış konkret normativ hüquqi aktları;

5.11.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktları;

5.11.4. aidiyyəti dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktları;

5.11.5. nazirin təşəbbüsü ilə Nazirliyin kollegiyasının müzakirəsinə çıxarılan bu Əsasnamənin 5.5.3-cü yarımbəndində nəzərdə tutulmuş normativ hüquqi aktları;

5.11.6. bu Əsasnamənin 5.11.1-5.11.5-ci yarımbəndlərinə uyğun olaraq, Nazirliyin kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişikliklər edilməsi barədə normativ hüquqi aktları.

5.12. Nazirliyin kollegiyasının iclasları kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Nazirliyin kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Nazirliyin kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.13. Nazirliyin kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda nazir bu barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat verərək, öz qərarını həyata keçirir. Nazirliyin kollegiyasının üzvləri şəxsi fikirlərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər.

5.14. Nazirliyin kollegiyasının iclaslarına digər icra hakimiyyəti orqanlarının və təşkilatların, habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri də dəvət edilə bilərlər.

5.15. Müvafiq sahədə elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün Nazirlikdə ictimai əsaslarla fəaliyyət göstərən elmi-texniki şura, internetin inkişafı şurası və digər ictimai şuralar yaradıla bilər.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 6 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin STRUKTURU

Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Aparatı (şöbələr və sektorlar)

## 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunan tədbir keçirilib




Martın 7-də Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə "Duzdağ" hoteldə 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib.

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin media üzrə məsul şəxsi Günay Malikqızı çıxış edərək 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə bütün Azərbaycan qadınlarını təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev çıxış edərək bütün şəhid anaları və xanımlarını, Vətənimiz üçün layiqli övladlar böyüdən əsgər analarının bayramını təbrik edərək onlara ən xoş arzularını çatdırıb. Bildirilib ki, Azərbaycan qadını səmərəli fəaliyyəti ilə ölkənin iqtisadi, sosial və siyasi həyatında fəal iştirak edir. Azərbaycan həmkarlar ittifaqları da qadınların ictimai həyatda fəal iştirakına, həmkarlar ittifaqlarının strukturlarında daha çox təmsil olunmalarına, onların rolunun gücləndirilməsinə xüsusi diqqət yetirir. Şura sədri vurğulayıb ki, hazırda Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının ittifaq üzvlərinin 51 faizini qadınlar təşkil edir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova ölkəmizdə dövlət-qadın siyasətinin uğurla həyata keçirilməsindən bəhs edib.

Tədbirdə çıxış edən Vətən müharibəsi şəhidi Vəli Quliyevin anası Həqiqət Quliyeva torpaqlarımızın azadlığı uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucalmış Vətən övladlarının xatirəsinin daim əziz tutulduğu kimi, onların ailə üzvlərinin də dövlət qayğısı ilə əhatə olunmasına görə təşəkkürünü bildirib.

Mədəniyyət işçiləri Həmkarlar İttifaqı Naxçıvan Muxtar Respublika Komitəsinin sədri Rövşən Hüseynov Azərbaycan qadınının cəmiyyətdəki yeri və rolundan danışıb.

Sonra tədbirdə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının əməkdaşlarının 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə hazırladığı videoçarx izlənilib, muxtar respublikanın ictimai-siyasi həyatında fəal iştirak edən 17 qadına plaket və hədiyyələr təqdim edilib.

Tədbir bədii hissə ilə davam edib, tədbirdə iştirak edən bütün xanımlara gül dəstələri hədiyyə olunub.



# Sən sönməyən Günəşsən, türkün qadını

Zaman gəldi, əlinə qılınc alıb döyüş meydanında cəngavər oldun. Qana doymayan düşmənin başını sözünlə kəsdin. Nüşabə olub dünyanın fatehinə ləl-cəvahiratı qızıl sinidə təqdim etdin, övladın yad əllərdə əsir olarkən hər biriniz bir ana, hər biriniz bir Burla xatın oldunuz Turala. Bəzən Atabəyə Möminə xatın olub adına şərəf abidəsi ucaltdırdın. Bəzən simi qaçmış kamana Məhsəti Gəncəvi nəğməsi, bəzən Sara xatına ağ atın vəfası oldun. Koroğluya Nigar, Nəbiyə Həcər, İlhama Fərizə oldun. Sən heç zaman sönməyən Günəş olub bu yurda yenidən doğdun. Vaxt oldu oğluna dayaq olub dövləti idarə etdin. Elə gün oldu ki, təkbaşına ordunu toplayıb məğlubedilməz qalanın müdafiəsinə qalxdın. Vaxt oldu göylərə ucalan təyyarənin qanadında döyüşlərə qatıldın. Sən müstəqillik arzusu ilə meydana çıxan oğullarla bir olub güllələrə sipər oldun. Sən tək yadigarın nişan üzüyünü sılahla dəyişib, soyuq qış gecələrində çıraq işığında yun corab toxuyub, gündüzlər güllə yağışı altında çətinliklə tapdığın undan çörək bişirib səngərdəki əsgərə göndərib, özün ac yatdın. "Ac qalaq, ancaq Vətənsiz qalmayaq", – dedin. Sən, azərbaycanlı qadını namusuna xələl gəlməsin deyə, qucağındakı körpənin səsini düşmən eşidib sizi əsir almasın deyə, körpəni öz əlinlə əbədi susdurub, qayaların başından uçuruma atıb canına qıydın. Soyuq, şaxtalı qış gecəsində yurdundan çıxmaq məcburiyyətində qalanda əynində nə varsa öz körpənə bələyib özün buz kəsildin. Sən cənnət Qarabağın əldən getməsin deyə, qanlı döyüşə girib, bir parçanı Qarabağda torpağa tapşırıb bədəninin yarısı ilə qayıtdın evinə.

Sən bu Vətən var olsun deyə, canından əziz balanı bir ovuc torpağa qurban dedin. Özün Vətən uğrunda şəhid olan övladının məzarına torpaq atıb, başı üstə qürurla dayanıb düşmənə gözdağı verdin. Şəhid anası, şəhid yarı adını ləyaqətlə daşıyıb, özün öz yarının tabutunu çiyninə alıb dünyaya kim olduğunu sübut etdin. Sən böyütdüyün övladlarla Banuçiçəyin, Tomrisin, Nüşabənin, Sara xatının, Aləmşahbəyimin, Həcərin davamçısı olduğunu göstərdin.

"Sən madar balanı Vətənə qurban verib oğlumun bəy paltarı Şuşada, Xocalıda dalğalanan bayraqdır, oğlumun bəy xonçası Qubadlıda, Laçında, Zəngilanda açan çiçəklərdir", – deyəndə, böyütdüyün oğullar sənin illər öncə tapdalanan namusunu öz qanı ilə pak edib, düşməndən qisasını alanda, biz bir ölüb min dirilən millətik deyəndə, əcdadının adını ləyaqətlə daşıyıb türkün qadınının necə böyük, məğlubedilməz olduğunu sübut etdin. Oğulların üçrəngli bayrağı qeyrət rəmzimiz Şuşada dalğalandıranda, Xankəndidə düşmənin tabutuna son mismarı vuranda dünya gördü türkün qadınının necə yenilməz olduğunu.

✍ **Ramiyyə ƏKBƏROVA**

## "Döyüş yolu" kitabının təqdimatı keçirilib





Babək Rayon Mədəniyyət Sarayında Vətən müharibəsi şəhidi Allahyar Telmanlıya həsr olunmuş "Döyüş yolu" kitabının təqdimatı keçirilib. Öncə Ulu Öndər Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü, azadlığı uğrunda canından keçən əziz şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himni səsləndirilib.

Tədbirdə Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov çıxış edib.

Bildirib ki, Vətənimizin ərazi bütövlüyü, dövlətimizin, müstəqilliyimizin qorunması uğrunda şəhid olmuş igid Azərbaycan övladlarının xatirəsinin əbədiləşdirilməsi ilə bərabər onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsi üçün aparılan ardıcıl işlər Prezident cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhidlərimizin ruhuna sonsuz ehtiram hissindən, şəhid ailələrinə böyük qayğısından irəli gəlir.

İcra başçısı qeyd edib ki, şəhidlərimiz bizim azadlıq, müstəqillik, yenilməzlik, qəhrəmanlıq simvolumuzdur. "Döyüş yolu" kitabını vətənpərvərlik ruhunda yazılmış əsər adlandırmaq olar. Allahyarın şərəfli döyüş yolunu işıqlandıran bu kitab gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində əhəmiyyətli rola malik olacaq əsərdir. Gələcək nəsillər "Döyüş yolu" kitabını vərəqləyərkən Zəfər tariximizi daha yaxından öyrənəcəklər. Kitabda istedadlı qələm sahibi Tərifə Kərimova bir şəhidin həyatını əks etdirib, Allahyarın döyüş cəbhəsində göstərdiyi qəhrəmanlıq çox böyük məsuliyyət hissi və peşəkarlıqla qələmə alınıb.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva qeyd edib ki, cənab Prezidentin yürütdüyü siyasətin əsas istiqaməti Vətən uğrunda canından və sağlamlığından keçən oğullara, onların ailələrinə göstərilən diqqət və qayğıdır. Hər bir azərbaycanlı öz igid oğulları ilə fəxr edir. Allahyar da belə oğullardandır. Onun Aprel döyüşlərində iştirakı və orada ağır yaralanmasına baxmayaraq, ordudan tərxis olunmaması və mübarizəyə davam edib Vətən müharibəsində iştirakı igid oğulun qəhrəmanlığından xəbər verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Aidə Cəlilzadə bildirib ki, şəhidlərimizin həyat yolu gənclərimizə örnəkdir. Qəhrəman əcdadımızın qanını öz damarlarında daşıyan, Vətənin azadlığı, bütövlüyü uğrunda canını, sağlamlığını qurban vermiş bütün oğul və qızlarımızın xatirəsi hər kəs üçün əzizdir. Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan oğullar illərdir, davam edən işğalı sonlandırmaqla Xocalının qisasını aldılar, Birinci Qarabağ müharibəsində şəhid olmuş oğulların ruhlarını şad etdilər.

Şəhidin hərbi liseydə oxuduğu illərdə müəllimi olmuş "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin baş redaktoru Ruhiyyə Rəsulova diqqətə çatdırıb ki, Naxçıvanda fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Lisey gələcəyin vətənpərvər hərbçilərinin yetişməsi üçün geniş imkanlara malikdir. Allahyar da onlardan biri idi. O, Aprel döyüşlərində göstərdiyi şücaətlə Vətənini sevən bir gənc zabit olduğunu sübut etdi. Bu kitabda iki məqaləsi olduğunu vurğulayan Ruhiyyə Rəsulova kitaba ön söz yazmış Asim Yadigarın müəllifi olduğu şəhid Allahyara həsr olunan şeiri səsləndirdi.

Kitabın müəllifi Tərifə Kərimova kitabın ərsəyə gəlməsində köməklik göstərənlərə minnətdarlıq edərək bildirib ki, şəhidlər Vətənin övladlarıdır. Onlar Azərbaycanın unudulmaz oğullarıdır. Hər bir qələm sahibi onların xatirəsini əbədiləşdirmək üçün əlindən gələni edir. Şəhidin kursant yoldaşı Vüsal Bəylərli çıxış edərək şəhidin vətənpərvərliyindən danışıb, onun daim yaddaşlarda yaşayacağını qeyd edib.

Şəhidin anası Nuriyyə xanım göstərilən dövlət qayğısına görə təşəkkürünü bildirib.

Sonda tədbirin bədii hissəsinə baxış olub. Şəhidə həsr edilmiş videoçarx nümayiş etdirilib.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Daha bir qaziyə və qazi övladına dəstək göstərilib

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası hər zaman şəhid ailələri və qaziləri diqqətdə saxlayır və problemlərinin həlli istiqamətində müvafiq tədbirlər görür.

Bu günlərdə şura daha bir xeyirxah addım atıb. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyanın sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev Vətən müharibəsi qaziləri Nurlan Quliyevin və Hüseyn Həsənovun müraciətlərini dinləyərək onların səhhəti ilə yaxından maraqlanıb.

Nurlan Quliyevə və Hüseyn Həsənova övladının müalicəsinin davam etdirilməsi üçün müvafiq məbləğdə maddi dəstək göstərilib.

Vətən müharibəsi qaziləri şura tərəfindən müraciətlərinə qısa zaman ərzində baxılaraq həll edildiyinə görə minnətdarlıqlarını bildiriblər.

# Azərbaycan qadını xalqımızın adını həmişə uca tutub

## Ümummilli Lider Heydər ƏLİYEV:

***“Qadın çox ülvi varlıqdır. Ona hörmət hər bir insanın yüksək mənəvi borcudur. Mən məmnuniyyət hissi ilə deyə bilərəm ki, bizim ölkəmizdə – Azərbaycanda qadına hörmət günü-gündən artır və insanlar qadının həyatda, cəmiyyətdə rolunun əhəmiyyətini daha da dərindən dərk edə bilirlər.”***

## Prezident İlham ƏLİYEV:

***“Zəngin mənəvi-əxlaqi sərvətlərimizin qorunub saxlanılması və günümüzədək layiqincə yaşadılması analarımızın adı ilə sıx bağlıdır. Gözəlliyi, zərifliyi və nəcibliyi ilə seçilən Azərbaycan qadınları, həmçinin hünər və igidlik göstərərək tariximizə parlaq səhifələr yazmışlar. Onlar taleyüklü bütün sınaq anlarında həmişə cəmiyyətimizə əsl mənəvi dayaq olmuş, 44 günlük Vətən müharibəsindəki fədakarlıqları ilə bu gerçəyi bir daha sübuta yetirmişlər.”***

Xalqımız çoxəsrlik tarixinin bütün dövrlərində qadını ülviyyətin təcəssümü saymış və ona hər zaman dərin ehtiram göstərmişdir. Azərbaycan qadınları keçmişimizin taleyüklü, həlledici anlarında vəzifələrinin öhdəsindən daim layiqincə gəlmişlər. Bəşər mədəniyyəti xəzinəsinə töhfəmiz olan milli-mənəvi dəyərlərimizin bir bütöv halında qorunub saxlanılmasında onların misilsiz xidmətləri vardır. Azərbaycan qadını dövlət idarəçiliyində öz sözünü demiş və onların adları çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır. Bu gün zərif, incə qəlbli və möhkəm iradəli insanların – anaların, bacıların, qız-gəlinlərin bayramıdır. ***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova*** ilə söhbətimizdə də ölkəmizdə bu zərif cinsin nümayəndələrinin tutduğu mövqe, onların ictimai-siyasi həyatda rolu və digər məsələlər barədə danışdıq. Ona ilk sualımız belə oldu:

***– Ramilə xanım, bu, bir həqiqətdir ki, ölkəmizdə dövlət-qadın siyasətinin gücləndirilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 70-ci illərindən başlayaraq qadınlarımızın cəmiyyətdə rolu və fəallığı artmağa başlamış, qadınların ictimai-mədəni həyatda yeri daha da möhkəmlənmişdir. İstərdik ki, bu barədə bir qədər geniş məlumat verəsiniz...***

– Tamamilə doğrudur. Ümummilli Liderimizin ölkəmizə rəhbərliyinin birinci dövrünə nəzər salanda Azərbaycan qadınının inkişaf dinamikasını görürük və bu belə bir fikri təsdiq edir ki, həmin dövr həyata keçirilən dəyişikliklərin həcminə, ictimai-iqtisadi islahatların səciyyəsinə, qadınların əkin-biçindən sənaye, iqtisadiyyat, elm sahələrinə keçidinə görə tariximizin ən parlaq səhifələridir. Ulu Öndər ideyaları iqtisadi inkişafda, milli-mədəni dirçəlişdə, milli özünüdərk duyğularında, milli ruhun yüksəlişində, xalqımızın illərdən bəri qəlbində yaşatdığı milli dövlətçilik düşüncəsinin formalaşmasında Azərbaycan qadınının hərəkətverici qüvvəyə çevrilməsinə mühüm zəmin yaratmış, respublikamızı müstəqil dövlət quruculuğuna aparan yolda addımlamağına əsas vermişdir. Həmin illərdə 298 qadın fəxri ad və mükafatlarla, o cümlədən təkcə onu qeyd etmək kifayətdir ki, 11 qadın o dövrün ən yüksək adı olan Sosialist Əməyi Qəhrəmanı fəxri adı ilə təltif olunmuşdur.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra dövlət qadın siyasəti daha da gücləndirilmiş, qadının cəmiyyətdəki fəallığının artırılması üçün məqsədyönlü addımlar atılmış və qadın hərəkatına dövlət tərəfindən qayğı xeyli dərəcədə artmışdır. Bunun nəticəsidir ki, Azərbaycan qadını ictimai-siyasi, iqtisadi, mədəni həyatın fəal iştirakçısına çevrilmiş və bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olmasına ciddi diqqət göstərilmişdir.

***– Xüsusilə dövlət qadın siyasəti yeni mərhələyə qədəm qoymuşdur.***

– Bəli, həmin dövrdən başlayaraq Azərbaycan Respublikasında qadın hüquqları ilə əlaqədar möhkəm, dayanıqlı hüquqi baza yaradılmış, ölkəmiz müvafiq sahə ilə bağlı beynəlxalq konvensiyalara qoşulmuşdur. Belə ki, müstəqil Azərbaycanın 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiqləmiş, qadınların demokratik dövlət quruculuğu prosesində fəal iştirakının hüquqi bazasını yaratmışdır. Ümummilli Lider qadınların rəhbər vəzifələrdə irəli çəkilməsinə xüsusi diqqət edirdi. Müstəqilliyimizin ən ağır zamanında belə “Azərbaycan qadınlarının Milli Komitəsinin yaradılması haqqında” Fərman imzaladı. 1998-ci ildə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Həmçinin “Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında” 1998-ci il 14 yanvar tarixli Sərəncam və “Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” 2000-ci il 6 mart tarixli Fərmanın Ulu Öndər tərəfindən imzalanması ölkədə uğurla həyata keçirilən dövlət qadın və gender siyasətinin nə qədər önəm kəsb etdiyindən xəbər verir.

***– Bu gün Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin atdığı addımlar hər bir Azərbaycan vətəndaşında qürur, fərəh və şərəf hissi yaradır.***

***– “Azərbaycan qadını milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında və nəsildən-nəslə çatdırılmasında daim fədakarlıqlar göstərmiş, xalqımızın hazırkı mədəni simasının müəyyənləşməsində müstəsna rol oynamışdır”***, – deyən ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən hazırda müstəqil ölkəmizdə dövlət qadın və gender siyasəti uğurla həyata keçirilir. Qadınların hüquqlarının qorunması, sosial problemlərinin həlli ilə əlaqədar qanunvericilik bazası təkmilləşdirilir, Dövlət proqramları qəbul edilir. Ölkəmizdə Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması və müvafiq olaraq Naxçıvan Muxtar Respublikasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin fəaliyyətə başlaması, həmçinin müvafiq sahədə qanunvericilik aktlarının qəbul edilməsi, xüsusən də 2006-cı il 10 oktyabr tarixdə “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsi dövlət siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsində və həyata keçirilməsində əhəmiyyətli rol oynamışdır. Gender siyasətinin tələblərinə uyğun olaraq hazırda ölkəmizdə qadınlarla kişilərin hüquq bərabərliyi təmin olunur, bütün dövlət strukturlarında qadınların dövlət idarəçiliyində rolunun artırılması istiqamətində ciddi addımlar atılır, qadınlar və kişilər üçün əmək bazarında bərabər imkanlar yaradılır.

Qürurvericidir ki, Azərbaycan qadını bu gün demokratik inkişaf, hüquqi dövlət quruculuğu yolunda sürətlə irəliləyərək sivil dəyərləri əxz edən Azərbaycan cəmiyyətinin həyatına birinci xanım ənənələrini də gətirmişdir. Fəxrlə deyə bilərik ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın simasında dünya dövlətlərinə dərin bilik və intellektə malik ziyalı, peşəkar siyasətçi, humanist Azərbaycan qadını obrazı təqdim olunur. Mehriban xanım Əliyeva həmişə əhalinin sosial məsələlərinin həll olunması, o cümlədən xüsusi qayğıya ehtiyacı olan ailələrin, qadınların və uşaqların problemlərinin öyrənilməsi və onlara qayğı göstərilməsi istiqamətində xeyirxahlıq missiyasını həyata keçirir. Həmçinin Mehriban xanım beynəlxalq ictimaiyyət qarşısında nüfuz qazanan ictimai-siyasi xadim adını daşımaqla hər kəsə örnək olan ana, bacı, həyat yoldaşı və digər vəzifələri layiqincə yerinə yetirən əsl Azərbaycan qadını nümunəsidir.

Dövlət qadın və gender siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. 2007-ci ildə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması muxtar respublikada qadınlara verilən hərtərəfli dəstəyin, onların hüquqlarının müdafiə edilməsi istiqamətində həyata keçirilən tədbirlərin mühüm göstəricilərindən biridir.

***– Bu gün qürur duyuruq ki, Naxçıvan qadınları muxtar respublikanın sosial-iqtisadi, mədəni, ictimai həyatında fəal iştirak edirlər. Onlar dövlət quruculuğu, hüquq-mühafizə, elm, səhiyyə, təhsil, mədəniyyət, idman, kənd təsərrüfatı və digər sahələrdə fəaliyyət göstərirlər.***

– Doğrudur. Əgər statistik rəqəmlərə baxsaq görərik ki, muxtar respublika əhalisinin 50,07 faizi, işləyən təbəqənin 39,23 faizi qadınların payına düşür. Təhsil sahəsində işləyənlərin 69,22 faizini, səhiyyə və sosial xidmətlərin göstərilməsi sahəsində işləyənlərin 81,70 faizini, istirahət, əyləncə - incəsənət sahəsində işləyənlərin isə 61,11 faizini qadınlar təşkil edir. Dövlət qulluğunda işləyənlərin 24 faizdən çoxu qadınlardır. Hazırda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 24,44 faizini qadınlar təşkil edir. Həmçinin Naxçıvan Muxtar Respublikasından Azərbaycan Milli Məclisinə seçilən 7 deputatdan 1-i qadındır. Bu gün qadınların Yeni Azərbaycan Partiyasında təmsil olunmaları da özünü müsbət yöndə göstərməkdədir. Hazırda muxtar respublika təşkilatı üzvlərinin 25 109-u, yaxud 46,7 faizi qadındır ki, onların da 113-ü ərazi ilk partiya təşkilatının sədridir. Sonuncu bələdiyyə seçkilərində üzvlərin 221-ni qadınlar təşkil edib ki, onların da 10-u bələdiyyə sədridir. Muxtar respublikada Ali Məhkəmənin sədri, Ombudsman, komitə sədri və müavini, həmçinin icra başçısının müavinləri, hakim, vəkil və Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyinin Müşahidə Şurasının sədri vəzifələrində çalışan qadınlarımız da vardır. Muxtar respublikanın idarə və təşkilatlarında onlarla qadın rəhbər vəzifələrdə işləyir. Muxtar respublikada 6 mindən artıq qadın idmanla məşğul olur ki, bu da idmanla məşğul olanların 24,06 faizi deməkdir.



Muxtar respublikada təhsilin inkişafına xüsusi qayğı göstərilir. Yaradılan şəraitdən istifadə edərək yüksək səviyyəli, fəal mövqeli, xalqına, dövlətinə sadiq, müasir dünyada gedən proseslərdən baş çıxarmağı bacaran gənc nəsil yetişir və onlar arasında hər sahədə olduğu kimi, qızlarımızın da rolu diqqətəlayiqdir. Naxçıvan qadınları professor, elmlər doktoru, dosent, fəlsəfə doktoru kimi elmi dərəcələrə yiyələnərək elmi fəaliyyətləri ilə Azərbaycan elminə mühüm töhfələr verirlər. Belə ki, muxtar respublikada 1 professor, 6 elmlər doktoru, 60-dan artıq dosent, 120-dən artıq fəlsəfə doktoru olan qadın vardır.

Məlumdur ki, qadın siyasətinin nüvəsini təşkil edən amillərdən biri də qadın sağlamlığıdır. Qadınların sağlamlıqlarının qorunması, dünyaya gələn yeni nəslin sağlam doğulması və böyüməsi, körpə və ana ölümünün minimuma endirilməsi daim nəzarətdə saxlanılır.

***– Ramilə xanım, bu gün artıq naxçıvanlı qadınları iqtisadi fəaliyyət sahələrində də görürük.***

– Bəli. Bu gün muxtar respublikamızda qadınların özünüməşğulluqlarının artırılması, eyni zamanda mikrosahibkarlıq fəaliyyətlərinin genişləndirilməsi üçün qrant layihələri həyata keçirilir. Belə ki, icra olunan sosialyönümlü layihələr çərçivəsində yüzlərlə qadın özünüməşğulluğa cəlb olunmuş, onlara sərmayə kapitalı verilmiş, maliyyə dəstəyi göstərilmişdir. Həmin qadınlar məşğul olduqları sahələr üzrə fəaliyyətlərini qurmuş, müvafiq sahədən gəlir əldə edərək onu daha da artırmışlar. Aid təşkilatlar tərəfindən daim onların sərmayə kapitalından düzgün istifadəsi ilə bağlı təsərrüfat sahələrində monitorinqlər həyata keçirilir. Bu da gələcəkdə qadınların kiçik və orta sahibkar kimi fəaliyyət göstərmələrinə zəmin yaradır. Hazırda muxtar respublikada 3681 qadın sahibkarlıq fəaliyyəti ilə məşğul olur.

***– Komitə olaraq qadınlarla bağlı həyata keçirdiyiniz tədbirlərin onlar tərəfindən razılıqla qarşılandığının da şahidiyik. Bu barədə nə deyərdiniz?***

– Muxtar respublikamızda həyata keçirilən dövlət qadın siyasəti qadınlarımızı cəmiyyətin fəal üzvünə çevirir, onların ictimai həyatda da iştirakını təmin edir. Milli və xalq tətbiqi sənəti növləri üzrə qadınlar arasında özünüməşğulluğun inkişaf etdirilməsi, onların rifah hallarının yüksəldilməsi üçün istedadlı qadınların əl işlərindən ibarət sərgi-satışlar təşkil olunur, mədəni-kütləvi tədbirlərdə onların sənət əsərləri nümayiş etdirilir. Ötən il komitə tərəfindən özünüməşğulluğunu təmin etmiş sosial qayğıya ehtiyacı olan qadınların əl işlərinin satışına köməklik göstərilməsi məqsədilə 223 şəxsin 15844 manat dəyərində 1528 əl işi və istehsal etdikləri məhsulların satışı həyata keçirilmişdir.

Həmçinin muxtar respublikada tənha, ahıl qadınlara sosial xidmətlər göstərilir, şəhid, əlil, aztəminatlı, tək ailə başçısı olan qadınların problemlərinin həlli ilə əlaqədar tədbirlər görülür, onların məşğulluğunun təmini, müvafiq peşəyə yiyələnmələri, istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün peşə kursları təşkil edilir, qadınlar peşəyönümlü təlimlərə cəlb olunurlar. Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycan qadını daim ailə dəyərlərinin qorunması, ailəsinin sağlamlığının təmin olunması, üzərinə düşən vəzifələrin istər ailədə, istərsə də cəmiyyətdə həyata keçirilməsi ilə bağlı əlindən gələni əsirgəməmişdir. Bunun nəticəsidir ki, Azərbaycan qadınının böyüdüb tərbiyə verdiyi igid, vətənpərvər, mərd oğulları sayəsində Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olundu, torpaqlarımız işğaldan azad edildi.

Bütün dövrlərdə, xüsusən də ölkəmiz müstəqillik qazandığı ötən müddət ərzində muxtar respublika qadınlarının fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilir, fəxri adlara, mükafatlara layiq görülür, medal və nişanlarla təltif edilirlər. Belə ki, 188 qadın Azərbaycan Respublikasının, 204 qadın Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülmüş, 185 qadın isə orden, medal və nişanlarla təltif olunmuşdur. Bütün bunlar Azərbaycan qadınının ictimai-siyasi fəallığını artırır, cəmiyyətimizin inkişafı, dövlət quruculuğu prosesində onların rolunu gücləndirir.

Qeyd edilənlər deməyə əsas verir ki, Naxçıvan qadınları həmişə olduğu kimi muxtariyyətin 100-cü ilində də ölkəmizdəki böyük quruculuq işlərində əzmkarlıqla çalışacaq, onlara göstərilən etimadı doğruldacaq, müstəqillik salnaməsini yeni müvəffəqiyyətləri ilə zənginləşdirəcəkdir. Bu gün beynəlxalq qadınlar günüdür. Ölkəmizdə də təntənə ilə qeyd olunan qadınların bu bayramı xalqımızın, müstəqillik ideyası ətrafında getdikcə daha sıx birləşən cəmiyyətimizin bayramıdır. Cəmiyyətdə öz rolunu dərindən dərk edən Azərbaycan qadını bundan sonra da müstəqil respublikamızın tərəqqisinə böyük töhfələr verəcəkdir.

***– Müsahibə üçün sağ olun.***

✍ Məhəbbət MİRZƏYEVA



# Atabəy yadigarı, qadın ucalığı, şərəf simvolu

# Möminə xatın

**Qadın ucalığı**

Sən, ey zərif qızıl telli, iffətli qadın. Sən, ey ustadının sənətkarlığı ilə qarşında aciz qaldığı məğrur qadın. Sən ey daşlara hopub, kövrəkliyini qapı başında gizlədən naxışlar səltənəti. Mahiyyətin necə dərin və məzmunlu, əzəmətin necə də əsrarəngiz və ecazkardır. Sən əsrlər əvvəl hamarlaşıb daşlara gömülmüş, bənzərsiz naxışlarla ehtiva olunmuş Atabəy yadigarı Möminə xatınsan artıq. Sən gözləri oxşadığın kimi könüllərə də sevinc və firavanlıq gətirirsən. Ziyarətinə gələnlərə məsudluq və məmnunluq bəxş edirsən. Əzəmətli görünüşünlə səni seyrə dalanların qəlbinə sirayət edir, gözlərində ucaldıqca ucalır, gözəlliyinlə hər kəsi heyran edirsən. Sən təkcə abidə deyil, həm də dövrün alimlərinin riyazi biliklərini əks etdirən qiymətli sənət əsərisən. Sən bizə öyrətdin sənətkarın alimin, alimin isə eyni səviyyədə sənətkar olduğunu. Elmlə sənət arasında körpü sənsən, Möminə ana. Sənsən Nizaminin Fərhadına Evklid həndəsəsinin sirlərini açan alim, daşlarla çin nəqşi çəkən zərif duyğulu memar.

Nə zaman ki bu əsrarəngiz seyrəngaha üz tuturam, ovsununa düşürəm Möminə ananın. 11 ildən artıq müddətdə kərpic-kərpic ucalan bu şərəf simvolu 800 ildən artıqdır ki, qadın ucalığına xidmət edir. Əlimi uzatsam əlim çatacaq, səsimi ucaltsam ünümün yetəcəyini düşünürəm sanki bu daş heykəlli evin sahibinə. Duyuram ayaq səslərini, duyuram ucalardan uca bu əzəmətli qadının isti nəfəsini. Savaşlarda əzizlərini itirmiş bu qadının baxışlarında ucalıq baş tacı olub. Humanizm timsalına çevrilən bu məqbərə əsrlərdir, öz məğrur duruşuyla gələni-gedəni özünə valeh edib. Qədim Şərqin, əsasən də, Qahirənin və Bağdadın memarlıq nümunəsi bizə nə qədər vahiməli və qorxunc görünsə də, Möminə ananın məqbərəsi bizə bir o qədər zərif və incə görünür. Atabəy Eldənizin arxasındakı ən böyük güc övladlarının məsləhətçisi, sarayda və dövlət idarəçiliyində yüksək məqam sahibi, ən əsası isə qadın sultan hesab edilən Möminə xatın məqbərəsinin qarşısında dil susur, ürək danışır, ürək susur, göz danışır. Ayaq sözə baxmır, bir güc nədənsə bizi sürükləyir bu tarix qoxan məkana.

Möminə ana! Sən bilirsən, zaman-zaman üzünə qalxan yağı əllərin sanki xilqətindən yaranmış zinət qarşısında kəsilərək torpağa düşdüyünü. Sən bilirsən, səni qoruyanın əliaçıqlığın, mehribanlığın və xeyirxahlığının olduğunu. Möminə ana, alqış sənə ki qüdrətin və zərifliyin qarşısında düşməni ovsunlayaraq özünü qorumusan. Möminə ana, alqış sənə ki qadının qul kimi rəftar olunduğu dövrdə Atabəyin şəninə tayı-bərabəri olmayan məqbərə ucaltdı. Möminə ana, alqış sənə ki dünyaya Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslan kimi igid sərkərdə bəxş etdin. Möminə Ana! Alqış memarın Əcəmi Əbubəkr oğluna ki səni əlçatmaz, ünyetməz göylərə dayaq edərək bu gözəl günlərə çatdırıb. Etdiyin bütün xeyirxahlıqların nəticəsidir ki, bu gün uğurlu taleyinlə fəxr edir, ucaldıqca ucalırsan. Sən artıq qədirbilən xalqın qayğılı əllərində isti ocaq, həzin musiqi, milli kimlik, milli qürur, and yeri, şərəf simvolusan.

**Şərəf simvolu**

Bu əzəmətli abidənin, qadına verilən sultan və ər dəyərinin, bu ülvi sənətin önündə insan istər-istəməz baş əyir. İllərin bu əvəzsiz yadigarına insan qəlbən nəvaziş dolu səcdələr bəxş edir. Duruşundakı naxışlar sanki həzin musiqinin harmoniyası ilə vəhdət təşkil edir. Məğrurluğunla həmahəng olan bu harmoniya, bəlkə də, illərin yığılıb qalmış muğamı, şuru, zəfər cəngidir. Əslində, sən elə musiqinin özüsən. Daşa dönmüş, heykəlləşmiş, lallaşmış, firuzəyi kaşıya tutulmuş səmt qatarında uyuyan həzin, kövrək musiqi. Bəlkə, sən musiqidən də ehtişamlısan, Möminə xatın. Duruşunla, baxışınla, təvazökarlığınla. Axı musiqi bir an da olsa, susur, uyuyur, itir, batır, paslanır. Sənsə əsrlərin əbədi sükutuna dalsan da, Günəş ziyasından qidalanıb gözəlləşdikcə, Ayı seyr etdikcə gecə və gündüzümüzə bərq vurursan. Aylı gecələrdə, günəşli günlərdə ətrafa səpələdiyin bu təvazökarlıq ənginliklərdə közərən qövsi-qüzeh kimi cilvələnərək tarixin dolanbac yollarına nur çiləyir. Seyrinə gələnlərə sirli-sehrli dünyanın möcüzəsi, gözyaşını ovcuna tökənlərə bitibtükənməyən eşq hekayəsi, sənə sirrini verənlərə sirdaş oldun. Bəlkə də, bu heyranedici duruşla bütün hüznlərə inam və vəfa ilə tab gətirib, vüqarını az da olsun əyməmisən.

İnsan bu qızıl tarixə dönüb baxdıqca yenidən və yenidən qürur duyur öz keçmişi ilə. Əcəmi Naxçıvaninin sənət sevgisindən yaranmış bu məqbərə artıq dünya memarlıq mədəniyyətinin zərif nümunəsi kimi tanınaraq Azərbaycanın, eləcə də Naxçıvanın ölməz memarlıq məktəbinin unudulmaz sənət əsərinə çevrilib. Naxışlarının ecazkar quruluşu Odlar yurdu mədəniyyətinin yüksək səviyyədə olduğundan xəbər verir. Taxçalarını örtən naxışlar divarlarını həmin yerdə necə də muma döndərib yüngülləşdirərək kütlə və həcmlərin ifadəli uyğunluğunu yaradıb. İlahi, memar sənətə üstünlük verərək ucaltdığı abidədə daşı, torpağı adilikdən, donuqluqdan çıxarıb ona yeni ruh, yeni nəfəs verərək necə də canlı varlığın bir parçasına çevirib.

Ötən hər əsr Möminə xatınla yaşıd olan karvansarayları, məscid və minarələri, darvaza və müxtəlif tikililəri səmum küləkləri ilə uçurub, qoparıb, silib aparsa da, incə, zərif və gözoxşayan naxışlarla bəzədilmiş Möminə xatın məqbərəsi tarixin bütün üzünə qarşı çıxaraq günümüzədək ayaqda durmağı bacarıb. Dünən də, bu gün də, sabah da yolu Naxçıvandan düşən və düşəcək hər bir qonaq, onu dəfələrlə görən yerli sakin də məqbərə önündə ayaq saxlayıb dayanır, ölməz sənətkarın duyğu və hisslərinin timsalına çevrilmiş abidənin naxış və ehtişamına qürur və heyranlıqla baxır. Keçmişə sevgi və ehtiramla yanaşdığımızda görürük ki, memorial abidələrin daxili və xarici bəzəyində hüzn rəmzi olan mavi-firuzəyi rəng üstünlük təşkil edib. Bu rəng Möminə xatın abidəsində də özünü qabarıq şəkildə göstərib. O bizə əzəmətli sultanlardan qalan zərif əmanətdir. Gəlin qoymayaq heç bir naşı əl onun hüsnünü korlasın. Heç bir yad göz ona kəm baxsın. Qoy o daim bizim səmtimiz, yönümüz olsun.

**Atabəy yadigarı**

Çox güclü xarakterə və qərarlı kimliyə sahib olan Möminə xatın həyat yoldaşı Eldənizin həm siyasi, həm mənəvi dəstəkçisi, eyni zamanda ən yaxın məsləhətçisi idi. Atabəyin Azərbaycan hakimiyyəti illərində etdiyi bəzi siyasi yanlışlıqları Möminə xatının özünün diplomatik səyləri ilə yoluna qoyduğunu hər zaman qürurla xatırlayırıq. Bu səhvlər arasında ən mühümü Eldənizin Aran Atabəyi Xasbəyin öldürülməsi zamanı sultan Məhəmmədə qarşı üsyankar fəaliyyəti idi. Məhz Möminə xatının səyləri sayəsində Atabəyin sultan Məhəmmədlə barışığı tarixin saralmış səhifələrində arxivləşərək günümüzə qədər gəlib çatıb. Eldənizin sultana yazdığı məktubun üslubunda da həyat yoldaşının diplomatik dəstxəti aydın hiss edilirdi. Atabəy bütün ömrü boyu məsləhətçisinə çevrilən Möminə xatının məsləhətlərini qulaqardı etmir, saray münaqişələrinə qarışmır, bir-birləri ilə ədavət aparan əmirlərin tərəfini saxlamırdı. Şərəf simvolu bu qadın həyatını sarayda keçirməyərək bir çox hərbi səfərlərdə iştirak edib. At minməkdə, qılınc tutmaqda kifayət qədər mahir olan bu qadının ömür yoluna tarix özü şahidlik edib. Tarix onu yüksək dəyər sahibi olaraq təqdim edib. Oxuyub mütaliə etdiyimiz kitablar bizə bu qadının güclü diplomatik bacarığa sahib olduğunu, siyasi hadisələrə istiqamət verdiyini, siyasi ixtilafları, xüsusilə də əri ilə sultan olan oğlu arasında intriqalara vasitəçi kimi anında müdaxilə etdiyini deməyə imkan verir. Bununla belə o heç zaman hadisələrin mərkəzində olmağa can atmayıb. Möminə xatının ən böyük missiyası isə xeyriyyəçilik fəaliyyəti idi. O, çox sayda mədrəsə, ibadətgah, bina inşa etdirərək xalqın və alimlərin xidmətinə verib. Möminə xatının qadın sultan kimi başqa bir xüsusiyyəti isə hərbi səfərlər ərəfəsində bütün hazırlıqlara şəxsən nəzarət etməsi idi. Ordunun keçdiyi yolda qərargahların qurulmasına, döyüş sursatlarının çatdırılması, çadırların qurulması, ərzağın təşkil edilməsi ilə bilavasitə özü maraqlanırdı. O, vaxtının çoxunu Naxçıvanda, bəzən isə Həmədan və Təbrizdə keçirib. Naxçıvanda xatirəsinə ucaldılan Möminə xatın məqbərəsinin tikintisi Atabəy Eldənizin vəfatından sonra oğlu Cahan Pəhləvan tərəfindən davam etdirilib. Bu məqbərə Səlcuqlu dövrünün ən gözəl memarlıq abidəsi sayılır.

**Möminə xatın**

Ey sərvboylu Möminə xatın, bu torpaqda ürək döyüntülərin hələ də eşidilir. Bu döyüntülər sevincindən, iffətindən, eşqindənmi söz açır? Amma əminəm ki, sənin əsrlərə sinə gərən köksün əsrlər ötdükcə sənətkarın Əcəminin, vəfalı yoldaşın Atabəyin, sevgili oğlun Cahan Pəhləvanın adına əbədi şöhrət çələngi hörür. Bu çələngin hər bir kərpici təkcə qədim Naxçıvanın deyil, qoca Şərqin gözəllik duyumundan söz açır, sevgisini, eşqini dünyaya tərənnüm edir. Möhtəşəm abidənə həkk olunan bu məhəbbət təəssüratı boşuna deyil. Azərbaycan qadınının, el anasının xatirəsini əbədiləşdirmək naminə, pak məhəbbət naminə ucaldılıb bu zərif abidə. Bu ucalıqdan baxdıqda Leylinin eşqinin, Şirinin sələfinin fövqündə duran Möminə ana görünür. Necə görünməyə bilərdi? O, eşq ilə yoğrulub eşq ilə yaşamışdı. Bəlkə də, türbənin üzərindəki küfi xətt qatarları, ümumi məhzunluq halının, nakam eşqin nisgilinin qəm karvanı məhz Əcəmi sənətinin qanadında pərvazlanaraq bütün Şərq aləminə sirayət edib. Zaman ötdükcə kədər deyil, sevinc, nəşə və iftixar mərkəzinə çevrilmiş bu əzəmətli türbə artıq neçə-neçə nəsillərin zövqünü əks etdirən canlı heykələ dönüb. Bu heykəl Əcəmi dühasından, Atabəy yadigarından gətirdiyi xoş müjdələri gələcək nəsillər üçün əbədi ərməğana çevirəcək, hələ bir çox nəsilləri özünə heyran qoyacaq. Vaxtilə bu seyrəngaha üz tutub hüznlü baxışlarla türbəni ziyarət edənlərin, matəm saxlayan əcdadlarımızın nəvələri bu gün bu seyrəngahda toy-bayram quraraq Novruzu qarşılayır. Bahar artıq sənin ətəyində qurulan toy-büsatla gəlir Naxçıvana. Ağaclar şəninə çiçək açır, uşaqlar dizin-dizin qoynunda ayaq açır, sevənlər xısın-xısın bir-birinə səni pıçıldayır. Bayramda alınan güllər sənin xeyir-duanla sevənlərə hədiyyə edilir. Sən bəyənirsən deyə, o güllərin ətri bütün evləri bürüyür, iyi mavi səmanda qanad açıb zərif kəlağayı kimi başına qonur. Sən, ey məğrur qadın, sən, ey Atabəy yadigarı, qadın ucalığı, şərəf simvolu, Möminə xatın, günün mübarək!!!

**Fariz ƏHMƏDOV**




# 100 ilin qəhrəmanları

*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Kəngərli rayonunun Şahtaxtı kəndindən olan şəhidimiz Azər Tağıyevin anası Könül Tağıyevanın, Şərur rayonunun Ələkli kəndindən olan şəhidimiz Sərxan Salahovun anası Müşkünaz Salahovanın və Kəngərli rayonunun Xok kəndindən olan şəhidimiz Niyamədin İsgəndərovun anası Bəyim İsgəndərovanın övladları haqqında xatirələri yer alıb.*

## Azər Kamil oğlu Tağıyev

*(20.12.1999-08.11.2020)*

## Mən oğlumla fəxr edirəm!





Azərin hər bir xatirəsi unudulmazdır. Çox sakit, çox da tərbiyəli idi. Onun dilindən "hey" sözü eşitməmişdik, elə "bəli" və "baş üstə". Mənim üç övladım var. Hər biri bir ayrıdır. Azər bir başqaydı.

Bir gün Azər evə zəng vurdu ki, təlimə gedirəm. Xüsusi təyinatlı dəstələrin təliminə. Mən ona dedim ki, getmə. Nə edəcəksən, onsuz da işləyirsən. Amma məni eşitmədi. Bizdən xəbərsiz gedib kursa yazılmışdı. Ona görə də söz deyə bilmədik. Təlimini başa vurdu.




Müharibəyə gedən günü evdə oturmuşdum. Mənə zəng etdi. Dedi ki, ana, yatmayın. Gecə saat 12-də gəlib sizi görəcəyəm. Bu sözü eşidən kimi bildim ki, Azər müharibəyə gedir. Soruşdum ki, hara gedirsən? Cavab verdi ki, ana, heç yerə getmirəm. Amma gəlirəm sizi görəm. Neçə gündür, evə gəlməyən Azər gecə saat 12-də gəldi. Dedi ki, ana, bəlkə, sabah Bakıya getdik. Nəsə ki, ana olasan... nə qədər dedim getmə, dedi ki, gedəcəyəm. Oktyabrın 16-sı getdilər.

Arada mənə zəng vururdu. Mən ağlayanda deyirdi ki, ana, ağlama, dua elə. İndi ağlamaq yeri deyil. Yalnız bizə dua et.

Müharibədə olanda bir gün zəng vurdu. Dedim ki, ana, qurban, nə edirsiniz? Cavab verdi ki, kabab yeyirik. Dedim, a bala, ora kabab yeridirmi? Dedi ki, hə, ana, toyuq kababı yeyirik. Dedim ki, ana qurban, telefonunu söndür, get kababını ye. Uşaqlar yeyər, sənə saxlamazlar. Cavab verdi ki, ay ana, burada elə şey yoxdu. Hər birimiz qardaşıq burada.

Nişanlı idi. Arzumuz toy etmək idi. Amma əcəl qoymadı. Balam bəy yox, şəhid oldu, qəhrəman oldu, Vətən oldu! Mən oğlumla fəxr edirəm!

## Sərxan Həsənqulu oğlu Salahov

*(01.03.1991-02.11.2020)*

## Bütün kənd onu qarşıladı



Sərxan çox mərd oğul idi. Mehriban idi. Bununla yanaşı, o qədər utancaq, qeyrətli oğlan idi ki, sözlə ifadə etmək çətindir. Biz Türkiyədə yaşayırdıq. O isə burada qalıb məktəbə gedirdi. Məktəbi də bitirdi. Vətənə borcunu verməyə getdi.



Heç unuda bilmədiyim bir hadisəni danışacağam. Bir dəfə Türkiyədən qayıdırdıq. Sərxan kənddə idi. Məni qarşılamağa gəlmişdi. Evdən çıxanda yoldaşı uşağa bez almağı tapşırıbmış. Sərxan gəlib avtobusa qalxdı. Gördü istidən hamının halı qarışıb. Mənə tərəf baxmadan avtobusdan endi. Bir də gördüm ki, iki bağlam müxtəlif sular alıb gətirib. Avtobusdakı sərnişinlərə payladı, evə gəldik. Yoldaşı dedi ki, bəs uşaqlara bez almadınmı? Dedi ki, yox, almamışam. Yoldaşı niyəsini soruşdu. Cavab verdi ki, avtobusdakıların susuzluqdan narahatlıqlarını gördüm, onları susuz qoya bilməzdim. Bax, Sərxan belə oğul idi. Cibindəki son qəpiyini də başqaları üçün xərcləyərdi.



Müharibədə olduğu müddətdə tez-tez danışardıq. Deyirdim ki, ay bala, səni də müharibəyə aparıblar? Deyirdi, ay ana, yox, mən kursu qurtarmamışam axı. Mən burada təmizlik işinə baxıram. Atama de mətbəxi, hamamı başa çatdırsın. Mən də deyirəm, yox, ay anan qurban, atan təkdir. Kiminlə düzəltsin, özün gələndə düzəldərsən. Dedi, yox, ana bilmək olmaz. Atam işini görsün, tez qurtarsın. Bu danışığımızdan on gün sonra balamın şəhid xəbəri gəldi.

Sonuncu danışığımız noyabrın biri oldu. Saat üçdə zəng vurmuşdu. Dedi ki, ana salamatçılıqdı. Amma mənə zəng çatmasa, bilin ki, telefonun enerjisi bitib. Nə vaxt kəndə ensək, onda zəng vuracağam. Sonuncu sözü o oldu ki, ana, uşaqlar sənə əmanətdir. Atama de işlərini görüb qurtarsın, məni gözləməyin. Mən də müharibə qurtaranda gələcəyəm. Balam gəldi, amma şəhid gəldi, qəhrəman gəldi. Vətən oğlu kimi gəldi. Sərxan bu dəfə kəndə elə gəldi ki, bütün kənd onu qarşıladı.

## Niyaməddin Qulu oğlu İsgəndərov

*(06.12.1985-25.10.2020)*

## Çavuş rütbəsi ilə qürurlanan şəhidim!



Niyaməddin mənim iki oğlumdan biridir. Biz onu Emin çağırırdıq. Deyim ki, Emin heç vaxt mənə əziyyət verməyib. Zahirən sakit idi oğlum. Tərbiyəsindən hamı razılıqla danışırdı. Nə məktəbdən, nə də kənddən heç bir şikayət eşitmədim Emin haqqında. Əsgərliyə gülə-gülə getdi. Bir dəfə də demədi ki, mən orada əziyyət çəkirəm. Ya da yerim yaxşı deyil. Heç vaxt demədi. Vətənini elə çox sevirdi ki, Emin. Əsgərlikdə çavuş rütbəsi vermişdilər. Gələndə sevincinin həddi-hüdudu yox idi.

Əsgərlikdən qayıtdıqdan sonra başqa-başqa işlərdə çalışdı. Bir neçə ildən sonra Daxili Qoşunlarda işə başladı. Çox həvəsli idi hərbiyə. Bir neçə ildən sonra ailə vəziyyətinə görə Daxili Qoşunlardan çıxdı. Amma yenə də hərbiyə həvəsi azalmadı. Şəhidliyindən səkkiz ay əvvəl milli orduda yenidən xidmətə başladı. Elə qürurlanırdı ki... Sanki ona ən yüksək vəzifə veriblər.



Bütün qohum-qonşulara qayğı göstərirdi. Bir dəfə qonşumuz oğluna kiçik toy edirdi. Çox soyuq idi. Hava imkan vermirdi ki, qonşu çadır qursun. Durub dedi ki, mən çadırı quracağam. Min bir əziyyətlə dostları ilə bu işi yoluna qoydular.

Emin həm də çox mehriban idi. Kəndin heç bir xeyrindən, şərindən qalmırdı. Bundan elə bil ki, zövq alırdı. Gözləməzdi ki, kimsə onu mərasimə köməyə çağırsın. İstər yas, istərsə də toy mərasiminə. Bütün mərasimlərdə canla-başla iştirak edirdi.

Emin balaca vaxtından göyərçin saxlayırdı. O qədər həvəsli idi ki, quşlara baxmağa. Onların uçmasından zövq alırdı. Ümumiyyətlə, heyvanlarla arası saz idi.

Sonuncu dəfə danışanda dedim ki, necəsən? Cavab verdi ki, ana, lap yaxşıyam,



məndən nigaran qalma. İnşallah, müharibədə qələbə çalıb gələcəyəm. Müharibəyə gedəndə maaş kartını mənə verdi. Dedi ki, ana, birdən gec gələrəm. Sizə pul ehtiyac olar. Amma bizim ehtiyacımız onun əməkhaqqına deyil, ehtiyacımız özünə idi... Balam şəhid oldu, Vətən oldu!

# Bakıda 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunan tədbir keçirilib



Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə 8 Mart – Beynəlxalq Qadınlar Günü ilə əlaqədar tədbir keçirilib. Əvvəlcə Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsi dərin ehtiramla yad edilib, məzarı önünə gül dəstələri qoyulub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə güllər düzülüb.

Milli Məclisin deputatlarının, dövlət və özəl sektor, qeyri-hökumət, beynəlxalq təşkilatların nümayəndələrinin, həmçinin respublikanın bütün regionlarından qadınların, görkəmli ictimai-siyasi xadimlərin iştirak etdikləri tədbirdə əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib.

Sonra Ümummilli Lider Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Prezident İlham Əliyevin Azərbaycan qadınlarına ünvanladığı təbrik məktubu oxunub.

Məktubu Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva səsləndirib.

Tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qadınların çalışdıqları hər sahədə uğur qazanmaları üçün ölkəmizdə bütün şəraitin yaradıldığını bildirib. Qeyd edib ki, dövlətimiz tərəfindən qadınlara xüsusi diqqət və qayğı göstərilir, onların əməyi yüksək qiymətləndirilir.





Azərbaycançılıq ideyası uğrunda sıx birləşən xalqımız Zəfər qazanaraq qalib adını tarixə yazdığını, yeni reallıqlar yaradan Azərbaycanın Cənubi Qafqazın və dünyada gedən qlobal proseslərin mühüm aktoruna çevrildiyini vurğulayan B.Muradova gərgin proseslər fonunda dövlətimizin başçısının ətrafında sıx birləşməyin vacibliyini qeyd edib.

Bahar Muradova bildirib ki, son 20 ildə dövlət idarəçiliyində gender amilinə diqqət artırılıb, qadın hüquqlarının təminatı, onların səlahiyyətləndirilməsi və iqtisadi cəhətdən gücləndirilməsi istiqamətində böyük irəliləyişlər əldə edilib. Ötən 20 il ərzində Azərbaycan qadınlarının üç qurultayı və bir forumu keçirilib.

Diqqətə çatdırılıb ki, ölkəmizdə ictimai həyatın bütün sahələrində qadınların rolu ildən-ilə daha da artır, ictimai, sosial-iqtisadi, mədəni, mənəvi sahələrdə qadınlar fəal iştirak edirlər.

Çıxışının sonunda Azərbaycan qadınlarını bir daha təbrik edən Bahar Muradova onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra dövlətimizin qadın siyasətindən bəhs edən videoçarx nümayiş olunub.





Tədbir konsert proqramı ilə davam edib.

Qeyd edək ki, tədbirdə Naxçıvan Muxtar Respublikasından 10 nəfər qadın da iştirak edib.

## Qadın sağlamlığının qorunmasına mühüm töhfələr verən cəfakeş həkim

***“Tərəqqi” medalına layiq görülən həkim-ginekoloq Gültəkin Əliyeva Prezidentə minnətdarlıq edib***



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2024-cü il 7 mart tarixli “Azərbaycan qadınlarının “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında” Sərəncamına əsasən Naxçıvan Dövlət Universitetinin Ümumi təbabət və klinik fənlər kafedrasının müdiri, dosent Gültəkin Əliyeva da “Tərəqqi” medalı ilə təltif olunub.

Tibb üzrə fəlsəfə doktoru, dosent Gültəkin Əliyeva 1953-cü il martın 8-də Naxçıvan şəhərində anadan olub. Orta təhsilini Naxçıvan şəhər 5 və 7 nömrəli tam orta məktəblərdə alıb. 1974-cü ildə Azərbaycan Dövlət Tibb Universitetinin Müalicə-profilaktika fakültəsinə daxil olub və 1979-1980-ci illərdə buranı bitirib. 1980-ci ildən 1988-ci ilədək Xocavənd rayonunda Mərkəzi Xəstəxanada mama-ginekoloq işləyib. Qarabağ hadisələri səbəbindən 1988-ci ildə Beyləqan rayonuna köçüb və 1993-cü ilədək bu rayonda işləyib. Daha sonra Naxçıvan şəhərinə köçüb. 1995-1998-ci illər arasında apardığı yeni elmi araşdırmaları sona çatdıraraq “İzoseroloji uyğunsuzluq fonunda gedən xronik toksoplazmoz infeksiyasının hamiləliyin başa çatmasında etoloji rolu” mövzusunda dissertasiya müdafiə edib. 2008-ci ildən Naxçıvan Dövlət Universitetində fəaliyyətini davam etdirir.

40 ildən çoxdur, tibb sahəsində çalışan həkimin əməyi yüksək qiymətləndirilib. 2016-cı ildə “Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi” fəxri adına layiq görülüb. 2017-ci ildə Azərbaycan Respublikası Avropa Nəşr Mətbuat Evinin Diplomu və “Ən yaxşı vətənpərvər tədqiqatçı alim” qızıl medalı ilə təltif olunub. Uzun illərdir, Naxçıvan Muxtar Respublikası Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirlərdə, qadın əhalisinin maarifləndirilməsi proqramında iştirak edir. Naxçıvan Dövlət Universitetində tibbi kadrların yetişdirilməsinə xidmət edən Gültəkin həkim 7 dərs vəsaitinin, 37 məqalənin müəllifidir.

Gültəkin həkim “Şərq qapısı”na müsahibəsində “Tərəqqi” medalı ilə təltif olunması münasibətilə ölkə başçısı cənab İlham Əliyevə minnətdarlığını bildirib. Bundan sonra da tibb sahəsinə töhfələr verəcəyini qeyd edib.

Biz də “Tərəqqi” medalı ilə təltif edilmiş bütün xanımları təbrik edir, fəaliyyətlərində uğurlar arzulayırıq.

## “Şərq qapısı” qəzetinin əməkdaşı təltif olunub



Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə əlaqədar “Naxçıvan Muxtar Respublikası: Azərbaycanın inkişafında qadınların rolu” mövzusunda keçirilən tədbirdə “Şərq qapısı” qəzetinin əməkdaşı Məhəbbət Mirzəyeva da təltif olunub.

# Torpaq və qadın, yaxud həyat verən, bəsləyən, böyüdən...



Mart ayının bahar təravətli günlərindən birindəyik. Bu gün hava sanki digər günlərə görə daha hərarətlidir. Elə bil, təbiət də hiss edib bu gün xanımların bayramıdır. O sanki öz hərarətini qadın qəlbinin istisindən pay alaraq könülləri ram edir. Quşların cəh-cəhi, hələ yenicə yaşıla boyanan tarlalar, ağaclarda açan rəngarəng çiçəklər, aydın səma insanın ruhunu oxşayır, qanını qaynadır. Dünyamıza işıqsaçan Günəşin mülayim yaz şəfəqləri bu gün həmişəkindən daha parlaqdır. Günəş təpələrin üzərindən boylanaraq sarı saçaqları ilə bu yerləri nura boyayır. Məğrur-məğrur dayanan təpələr qoynunda lalələrin çiçəklənməsini həsrətlə gözləyir. Bar verməyə hazırlaşan ağacların sevinc işartıları ətrafa yayılır.

Dağı-daşı, torpağı-suyu, səması bizim üçün əziz və doğma Naxçıvanımızın Babək rayonudur bura. Qəlbi riqqətə gətirən bahar təravətli təbiəti izlədikcə bu mənzərə insanın könül dünyasına qeyri-adi hökmranlıq edir. Düşünürsən... Bu qüdrəti, əzəməti yaz fəslinə kainatı yaradan Allah bəxş edib. Elə Qadına bəxş etdiyi güc-qüdrət kimi... Bu yerlərin gözəlliyinə daha bir gözəllik qatan zəhmət ətirli qadınlardır. O qadınlar ki sübh tezdən oyanıb, çalmasını çalıb, önlüyünü taxıb, əlinə bel, dırmıq alıb torpağın nazını çəkmək üçün əkin sahələrinə tələsirlər. Axı torpaq onların ruzi təknəsi, yaşam qaynağıdır...

Bu fədakar qadınların səhərin gözü açılandan gün batanadək duyulan zəhmət sədaları onların əməksevərliyindən xəbər verir. Siması zəhmətdən naxışlar, əlləri torpaqdan qırışlar alan əməkçi qadınlar torpağın böyük bir xəzinə olduğunu söyləyir. Deyirlər ki, torpağa baş əyəni torpaq başıuca edir, tər verənə zər, bağrını yarana barbərəkət verir.

Şəfayət ana deyir ki, torpaq üçün alın təri axıtmağı bizə analarımız, atalarımız öyrədib. Torpağın bir qarışını belə boş qoymamaq ana nəsihəti, ata öyüdü olub bu yerin insanlarına. Əzəldən bəri bu yerlərdə torpaqda izi olanın camaat arasında nüfuzu da olub. İllərdir ki, əkin-biçin bizim ehtiyacımızı ödəyir, həyatımızın yeganə ruzi qaynağı olmaqla çətinliklərimizi aşmağa kömək edir. Alın açıqlığı ilə halal qazanc əldə etdiyimiz, gözlərimizin tək dikiləcəyi ruzi mənbəyimiz olub bu torpaqlar.

Birlikdə tərxun yığdığımız Həkimə ana məni az öncəkindən fərqli olaraq daha səmimi baxışlarla, isti təbəssümlə izləyir. Deyəsən, xoş sözlərimlə qəlbini ovsunlaya bilmişəm. Yanlış anlamayın, əsla xətrinə dəymədiyimi! Az öncə qaşqabaqlı məni süzməyinin səbəbini mən də bilmirdim. Sonra öyrəndim ki, sən demə, Həkimə ana şəkil çəkdirməyi sevmirmiş... Amma bir neçə dəqiqəlik söhbətimizdən sonra özü birlikdə xatirə fotosu çəkdirmək istədi, bərk-bərk də tapşırdı ki,“Tiktok”da paylaşmayın haa...



Burada tanıdığım qadınlar o qədər səmimi, mehriban, qayğıkeşdirlər ki, sanki illərdir, məni tanıyırlar. Birlikdə göyərti yığıb, dəstələyib, yer kağıdından sonra saat 11 olur. Və çay saatı dedikləri həmin an yetişir. Bizi də çay fasiləsinə qonaq edirlər. Deyərdim ki, ana təbiətin qoynunda bu qadınlarla içdiyim çay həyatımdakı ən xoşətirli və dadlı çay idi. Çünki o çayda qadın ürəyinin hərarəti, səmimiyyət ətri vardı. Və yenə hər zamankı kimi, sağollaşmaq anı gəlib çatdı. Bu mehriban insanlardan ayrılmaq istəməsəm də, onlarla keçirdiyim xoş anları qələmə almaq üçün işə yetişməliyəm. Qayğıkeş analarla möhkəm-möhkəm qucaqlaşaraq yenidən görüşmək diləyilə sağollaşırıq.

...Deyirlər, torpaq anadır, axı. Məncə, bu qadınlar da ana torpağın danışdığı dildir. Gözlərindəki səmimiyyət, ürəklərindəki saflıq, insanı iliklərinədək isidən sözlərindəki doğmalıq elə müqəddəs torpaq qədər insanı özünə çəkir. Bu, təbiidir. Axı torpaq da qadın kimidir. Vəfalı və səxavətli... Həyat verir, bəsləyir, böyüdür, eyni qadın kimi!

**Gülcamal TAHİROVA**

# Azərbaycan xalqının Ümummilli Lideri Heydər ƏLİYEV:

“Naxçıvanın çox gözəllikləri var. Birincisi, onun təbiətidir. Naxçıvanın təbiətinin gözəlliyi məğrurluq rəmzidir. Bax ətrafda görünən dağlar, qayalar, çılpaq torpaqlar – burada yaşıllıq azdır – bu diyara xüsusi gözəllik verir. Ancaq bu gözəllik, yenə də deyirəm, qəhrəmanlıq, məğrurluq rəmzidir. O məğrur dağlar kimi insanlar da məğrurdurlar.”



*“Şərq qapısı” qəzetinin “Naxçıvanı tanıyaq” fotosərgisi Naxçıvanın muxtariyyətinin 100 illiyinə həsr olunub. Sərgi il ərzində Bakıda və Türkiyədə də təqdim olunacaq. Bu fotosərgidə nümayiş olunan fotoları ilboyu qəzetimizin səhifələrində sizə təqdim edəcəyik.*











***İtmişdir***

Baş çavuş Haqverdiyev Salman İsmayıl oğlunun adına olan baş çavuşun hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 61-ci məhəllə, 1/21-də yaşayan Bayramov Xaliq Bayram oğlunun adına olan MH-0077006 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Quluzadə Altay Firudin oğlunun adına olan A-461078 nömrəli Əfqanıstan müharibə veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm qəsəbə sakini Hüseynov Telman Əhmədalı oğlunun adına verilmiş JN-0027 nömrəli, 10300058 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Culfa rayonunun Dizə kənd sakini Sultanova Səhnə Şəvahət qızına məxsus JN-159A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Fariz Əhmədov
Dizayner: Tacirə Vəliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 61